RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 248 (9415) 15 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Xankəndi paradı Özbəkistanda da qürurla izlənilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ilk növbədə Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, həmin tədbir çərçivəsində Özbəkistan Prezidenti ilə görüşünü məmnunluqla xatırlatdı.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd etdi.

→ 2

**Heydər Əliyev İli**



## Mükəmməl təhlükəsizlik sisteminin banisi

Bu il anadan olmasının 100-cü ildönümü bütün xalqımız tərəfindən böyük ehtiram və sevgi ilə qeyd edilən əbədiyaşar şəxsiyyət, müasir Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən biri respublikamızın mükəmməl təhlükəsizlik və müdafiə sisteminin formalaşdırılması olmuşdur.

Müstəqil Azərbaycanın təhlükəsizlik siyasətinin və strategiyasının hədəf və prioritetləri ilk dəfə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş və praktik şəkildə həyata keçirilərək respublikamızın milli və dövlətçilik mənafelərini layiqincə təmin etmişdir.

### Ulu Öndərin dühası ilə yaranan təhlükəsizlik arxitekturası

Suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının təmin olunması, konstitusion quruluşun, milli maraqların və mənafelərin hər cür təhdidlərdən qorunması tarixən hər bir dövlətin qarşısında dayanan başlıca vəzifə və məqsədlərdən biri sayılıb. Tarixi təcrübə və reallıqlar da bu həqiqəti təsdiqləyir ki, özünün təhlükəsizlik prioritetlərini uğurla təmin edə bilməyən və ya təkmil təhlükəsizlik və müdafiə sistemlərini yaratmağı bacarmayan dövlətlər xarici və eləcə də daxili təhdidlərdən əziyyət çəkiblər. Bu da onların xalqlarının taleyində müxtəlif formalarda iz buraxıb.

Çox uzağa getmədən, elə Azərbaycanın müasir müstəqillik tarixində milli təhlükəsizliklə bağlı vaxtilə mövcud olmuş boşluqların hansı mənfi təzahürlərə yol açdığını, hansı nəticələrə gətirib çıxardığını görmək mümkündür. 1990-cı illərin əvvəllərində dövlət təhlükəsizliyimizin hansı ciddi təhdidlərlə üz-üzə qaldığı yaşlı və orta nəslə yaxşı məlumdur. Bir tərəfdən Ermənistan tərəfindən torpaqlarımızın işğal planının həyata keçirilməsi, digər tərəfdən şimalda və cənubda separatçılığın baş qaldırması milli təhlükəsizliyimizi sonu görünməyən təhlükə qarşısında qoymuşdu. Bir-birini əvəz edən məlum hakimiyyətlərin idarəçilikdə buraxdıqları kobud səhvlər ucbatından ölkə dərin siyasi və iqtisadi uçurum, yenicə qazanılmış dövlət müstəqilliyimiz yenidən itirilmək təhlükəsi qarşısında idi.

Ona görə xalqımızın təkidli istək və arzusu ilə 1993-cü ildə siyasi hakimiyyətə gələn zaman Ulu Öndər Heydər Əliyevin qarşısında çətin və mürəkkəb məsələlər dayanmışdı.

→ 5

# İlham Əliyev qətiyyəti




→ 7

## Heç bir güc Azərbaycanın müstəqil siyasətinə təsir göstərə bilməz

**Dünyadakı ikili standartlar, dini və milli zəmində qütbləşmə kəskinləşməkdə davam edir. Təəssüf ki, bəşəriyyət üçün təhlükəli olan bu prosesdə böyük dövlətlər - ABŞ, Fransa, eləcə də beynəlxalq təşkilatlar - Avropa İttifaqı (Aİ) hərəkətverici qüvvəyə çevriliblər. Artıq hər kəsə bəllidir ki, "xristian klubu"na çevrilən Avropa İttifaqı "ədalətsizlik ünvanı" statusuna da sahiblənib.**

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində vasitəçilik missiyasını üzərinə götürən bir təşkilatın sərgilədiyi mövqe göstərir ki, Aİ ikibaşlı siyasət yürüdür.

ABŞ və Fransa isə son 30 ildə sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etsələr də, işğalçı Ermənistana hərtərəfli yardımlarını əsirgəməyiblər. Elə bu gün də həmin siyasət davam edir.

### ABŞ və Fransanın "demokratiya" totalitarizmi

ABŞ və Fransa dünyaya "demokratiya" yaymaq iddiasında olsalar da, bu iddianın çox ziddiyyətli bir tarixə sahib olduğunu qeyd edə bilərik. Çünki adıçəkilən güclərin İraq, Əfqanıstan, Suriya, həmçinin Mərkəzi Asiya və Afrikanın bir çox ölkəsinə "bəxş etdikləri" demokratiya uzun illər məhz dünyanın gözü qarşısında baş verib. Hələ üstəlik ABŞ və Fransa hər zaman bu demokratiyanı güc hesabına yaymağı özlərinə rəva biliblər. Bütün hallarda bu dövlətlərin iddia etdikləri demokratiyadan əvvəl onların ordusu başqa ölkələrin ərazisinə müdaxilə edib. Bununla da yaymağa çalışdıqları "demokratiya" hər dəfə bəşəriyyət üçün minlərlə insanın ölümü, dağıntılar və xaosla nəticələnib. Ən sadə halda isə ABŞ və Fransa demokratiya adı altında dünyada bir çox çevriliş cəhdinin arxasında dayanan əsas fiqurlar olublar.

Uzun əsrlərboyu dünya siyasi və hərb tarixində ABŞ-nin rəhbərliyi altında Qərb imperializminin haqsız siyasi istismarının səbəb olduğu faciələr danılmaz faktlardır. Bu imperializmin təhlükəli nəticələri kütləvi insan fəlakətlərinə səbəb olub.

Bu ilin mart ayında Fransa ərazisi hesab edilən Korsika adasında baş verən proseslər də bu ölkənin səlibçi, hegemon siyasətinin əyani təzahürü idi. Çünki məhkəmə qərarı ilə bir xalqın dilinə qadağa qoyuldu.

## ABŞ və Qərbin ənənəvi qərəzi

Bu cür siyasət dövlətlərarası münasibətlərə xələl gətirir

→ 9

## Riyakar və ədalətsiz mövqe

Antiazərbaycançı şəbəkə regionda münaqişə ocağı yaratmaq üçün dəridən-qabıqdan çıxır

→ 8

## Daha 10 ailə bundan sonra Laçında yaşayacaq

Dünən Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 10 ailə - 40 nəfər köçürülüb. Bununla da şəhərdə 325 ailə, yəni 1245 nəfərin daimi məskunlaşması təmin edilib.



Doğma şəhərə qayıdan laçınlılar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər.

→ 7

## Fransada antisemitizm getdikcə artır

Ölkədə terrorizmə bəraət qazandırılması ilə bağlı 330 təhqiqat işi başlayıb

→ 8

## Hayastan əhalisi 30 ildir 3 milyona çatmır

Ölkəni tərk edənlərin sayı durmadan artır

→ 9

## Sosialyönümlü büdcə

Parlamentdə müzakirələr davam edir



Noyabrın 14-də parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova iclası açaraq ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olmuş yeni qanun layihəsini gündəliyə daxil etməyi təklif edib.

Deputatlar iclasın yeni gündəliyini təsdiqlədikdən sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin (birinci oxunuş) müzakirələri davam etdirilib.

Müzakirələrdə Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Zahid Oruc, Əhliman Əmiraslanov, Ziyafət Əsgərov, komissiya sədrləri Eldar İbrahimov, Eldar Quliyev, deputatlar Musa Qasımlı, Kamal Cəfərov, Hikmət Məmmədov, Səbinə Xasayeva, Elnur Allahverdiyev, Aqiyə Naxçıvanlı, Mahir Abbaszadə, Qüdrət Həsənquliyev, Vahid Əhmədov, Anar İsgəndərov, Əziz Ələkbərov, İqbal Məmmədov, Etibar Əliyev, Aydın Hüseynov, Vüqar İskəndərov, Məlahət İbrahimqızı, Emin Hacıyev, Aydın Mirzəzadə, Tahir Kərimli, Əminə Ağazadə, Jalə Əliyeva, Razi Nurullayev, Sabir Rüstəmxanlı çıxış ediblər.

Millət vəkilləri 2024-cü ilin dövlət büdcəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasında böyük şücaətlər göstərmiş hərbi qulluqçularımızın təminatı, ordumuzun qüdrətinin artırılması, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük qayıdışın reallaşdırılması məsələlərinə böyük diqqətin ayrılmasını, müdafiə və milli təhlükəsizlik xərclərinin, sosialyönümlü xərclərin, əsaslı xərclərin prioritetliyinin saxlanmasını təqdirlə qarşılayıblar.

→ 2

# Xankəndi paradı Özbəkistanda da qürurla izlənilib



*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfəri zamanı qarşıdakı illərdə əməkdaşlığın gündəliyi və qarşıya qoyulan məqsədlərə nail olunması ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi.

Laziz Kudratov ilk növbədə Özbəkistan Prezidentinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirdi, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.

Laziz Kudratov vurğuladı ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur. Qonaq eyni zamanda qeyd etdi ki, özbək xalqı Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi paradı qürur hissi ilə izləyib. Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu dedi.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddə 337, № 4, maddə 463, № 6, maddə 742; Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 978-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 22.0.6-cı maddə üzrə:

1.1.1. birinci abzasda "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

1.1.2. 22.0.6.3-cü maddədə "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin;

1.2. 33-5.1-ci maddə üzrə:

1.2.1. 33-5.1.1-ci maddədə "20" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 33-5.1.2.1-ci maddədə "30" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 33-5.1.2.2-ci maddədə "50" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 33-5.1.2.3-cü maddədə "60" rəqəmləri "40" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. 33-5.1.2.4-cü maddədə "70" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin;

1.2.6. 33-5.1.2.5-ci maddədə "100" rəqəmləri "70" rəqəmləri ilə əvəz edilsin;

1.2.7. 33-5.1.2.6-cı maddədə "150" rəqəmləri "100" rəqəmləri ilə əvəz edilsin;

1.2.8. 33-5.1.3-cü maddədə "20" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanunun 1.2-ci maddəsi dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1016-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1016-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1467; 2018, № 4, maddə 687; 2019, № 3, maddə 405, № 5, maddələr 848, 852; 2020, № 6, maddə 698; 2022, № 8, maddə 895) ilə təsdiq edilmiş 4 nömrəli Əlavə - "Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasda "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

1.2. 3.2-ci bənddə "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593, № 12, maddələr 1356, 1430; 2022, № 5, maddə 459, № 11, maddə 1264; 2023, № 3, maddə 368, № 4, maddələr 474, 499, № 9, maddə 1285) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.36-cı yarımbəndində "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyul tarixli 1079 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 859; 2021, № 7, maddə 728) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı"nın 1-ci hissəsində "Rabitə" sözü "Telekommunikasiya" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2023-cü il*

# Sosialyönümlü büdcə

## Parlamentdə müzakirələr davam edir





*Əvvəli 1-ci səh.*

Onlar büdcə siyasətində iqtisadiyyatın, onun qeyri-neft sektoru, kənd təsərrüfatı kimi sahələrinin inkişafının dəstəklənməsi, əhalinin həssas qruplarının, xüsusən də şəhid ailələrinin və müharibə iştirakçılarının, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini yüksək qiymətləndiriblər.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın təklifi ilə gündəliyin növbəti iki məsələsinin - "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihələrinin təqdimatları və müzakirələri birlikdə aparılıb, səsvermə isə ayrı-ayrılıqda keçirilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında müasir Azərbaycan dövləti öz tarixinin ən şərəfli, ən qüdrətli dövrünü yaşayır. İndi ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilib.

Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan 2024-cü il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsi ölkə rəhbərinin sosial ədalət və sosial rifah prinsiplərinə xidmət edən ali niyyəti rəhbər tutularaq tərtib edilmişdir. O qeyd edib ki, fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılıb. Bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur.

Fondun gəlirlərinin strukturuna diqqət çəkən Musa Quliyev deyib ki, onun gəlirlərinin 5 mlrd. 288,1 milyon manatının, yaxud 76,4 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur. Orta aylıq əməkhaqqının cari ilin sonuna 930 manat təşkil edəcəyinin proqnozlaşdırıldığını deyən komitə sədri bunun da gələn ildə pensiyaların orta hesabla 11 faiz artırılmasını təmin etməyə imkan yaradacağını vurğulayıb.

Dövlət Sosial Müdafiə Fondunun xərclərindən danışan Musa Quliyev ümumi xərclərin 6,6 faizinin və ya 6 milyard 681 milyon 580 min manatının əhaliyə ödənişlər təşkil edəcəyini diqqətə çatdırıb. Komitə sədri bildirib ki, əhaliyə ödənişlərin 2024-cü il üçün nəzərdə tutulmuş proqnozu 2023-cü ilin təsdiqlənmiş proqnozundan 604 milyon manat, yaxud 10 faiz çoxdur. Əmək pensiyalarının orta aylıq məbləğinin 2023-cü ildə 436 manat təşkil edəcəyi gözlənilir, 2024-cü ildə isə 483 manat olacağı proqnozlaşdırılır.

"İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, 2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur. Bildirilib ki, İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 179,98 milyon manatı, yaxud 75,6 faizi işsizlikdən sığorta haqları üzrə yığımın, 57,95 milyon manatı, yaxud 24,4 faizi isə cari ilin sonuna qədər istifadə olunmamış vəsait hesabına formalaşacaq və bu yığımın 74,8 faizi qeyri-büdcə sektorunun payına düşür.

Fondun xərc istiqamətlərindən söz açan Musa Quliyev vurğulayıb ki, İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün nəzərdə tutulmuş büdcə layihəsi sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, ictimai-sosial işlərin və digər xidmətlərin maliyyələşməsi üçün optimal əsaslar yarada biləcək.

Komitə sədri Tahir Mirkişili təqdim olunan qanun layihələri ilə bağlı rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirib.

2024-cü ildə dövlət büdcəsindən fondun maliyyə tarazlığı üçün 1 milyard 392 milyon manat vəsait köçürüləcəkdir ki, bu da 2023-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 75,8 milyon manat az deməkdir. Transfert məbləğinin azalmasını fondun gəlirlərinin artması ilə bağlayan komitə sədri bildirib ki, fondun ilin sonuna istifadə olunmamış vəsaitlərinin investisiya fəaliyyətinə yönəldilməsi də növbəti illərdə onun gəlirlərinin diversifikasiyasına yeni imkanlar yaradacaq.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək, əhalinin sosial müdafiəsinin gücləndirilməsinin və sosial rifahının yaxşılaşdırılmasının dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas prioritetləri olduğunu deyib. O, diqqətə çatdırıb ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün gəlirləri 6 milyard 920 milyon manat nəzərdə tutulur. Bu, 2023-cü ilin proqnoz gəlirlərindən 10 faiz çoxdur. Gəlirlərin 76 faizinin məcburi dövlət sosial sığorta daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 1,9 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 3 milyard 387 milyon manat nəzərdə tutulub. Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 392 milyon manat proqnozlaşdırılır.

Bildirilib ki, növbəti ildə fondun xərcləri 6 milyard 920 milyon manat proqnozlaşdırılır və bu, cari ilə nisbətən 10 faiz çoxdur. Xərclərin 97 faizi əhaliyə ödənişlərin payına düşür. Bu məbləğin 6 milyard yarımı əmək pensiyaları, 182 milyon manatı müavinət xərclərindən ibarət olacaq. Əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 593 milyon manat və ya 10 faiz artımla nəzərdə tutulub.

Sonra nazir müavini İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün büdcə layihəsi barədə məlumat verib. O, fondun gəlirləri və xərclərinin bərabər olmaqla 238 milyon manat nəzərdə tutulduğunu, bunun cari illə müqayisədə 20 milyon manat və ya 9 faiz çox olduğunu söyləyib. Bildirilib ki, sığorta haqları üzrə yığımın 75 faizi qeyri-büdcə sektorunun payına düşəcək. Xərclərin 31 faizi özünüməşğulluq tədbirlərinin, 19 faizi sosial sahədə xidmətlərin müştərək maliyyələşməsinə, 15 faizi peşə hazırlığı xərclərinin maliyyələşməsinə yönəldiləcək.

Müzakirələrdən sonra "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəliyin 4-cü məsələsi olan "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, bildirib ki, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qədər artırılır.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin rəhbərlik etdiyi komitənin layihə barədə müsbət rəyi dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Musa Quliyev "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirib ki, gələn il üçün ehtiyac meyarının həddi 24 manat artırılaraq 270 manat nəzərdə tutulur.

Layihə barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin müsbət rəyini bildirdikdən sonra sənəd birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib.

Diqqətə çatdırıb ki, ölkə Prezidenti tərəfindən təqdim edilmiş qanun layihəsində sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri üzrə dəyişiklikləri ehtiva edən müddəalar öz əksini tapıb. Dəyişikliklər maliyyə, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər sektorları əhatə edir.

Qeyd edilib ki, Vergi Məcəlləsinə 71 əsas maddə və 201 altmaddə üzrə dəyişiklik edilməsi nəzərdə tutulub. Təklif olunan dəyişikliklər nəticəsində dövlət büdcəsinə 121,5 milyon manat gəlir, 79,5 milyon manat itki, ümumilikdə isə 42 milyon manat büdcə daxilolmaları gözlənilir.

Tahir Mirkişili bildirib ki, maliyyə sektoru və kapital bazarları üzrə dəyişikliklərlə bağlı təklif olunan güzəştlərdə kredit təşkilatlarının ödənilməyən borcları müqabilində balansa götürdüyü girov əmlaklarının və torpaq vergilərinin 2 il müddətinə azad edilməsi, ləğvetmə prosesində olan bankların vergi yükünün tənzimlənməsi üçün vergitutma məqsədləri baxımından ehtiyatların yaradılması, dividendlər üzrə ödəmə mənbəyinin vergi dərəcələrinin 10 faizdən 5 faizə endirilməsi, dövlət hakimiyyəti orqanlarının, habelə büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının, publik hüquqi şəxslərin dividend gəlirlərinin isə əksinə, vergi azadolmasının ləğv olunması və onların 5 faiz vergiyə cəlb olunması, İcbari Sığorta Bürosunun gəlirlərinin mənfəət vergisindən azad edilməsi nəzərdə tutulub.

Səhiyyə sahəsi üzrə dəyişikliklərdə 2024-cü ildə müddəti bitən İcbari Tibbi Sığorta Fondunun vəsaiti hesabına maliyyələşən tibbi xidmətlər üzrə vergi güzəştlərinin vaxtının daha 3 il müddətinə uzadılması, bu güzəştin təsdiq edilən siyahı üzrə ictimai və sosial məqsədlər üçün yaradılmış fondların (Heydər Əliyev Fondu, Qarabağ Dirçəliş Fondu, "Yaşat" Fondu) vəsaitləri hesabına tibbi xidmətlərin göstərilməsinə şamil edilməsi, tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsinin 2024-cü il yanvarın 1-dən etibarən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi təklif olunur.

Kənd təsərrüfatı sektorunda 2024-cü ildə vaxtı bitən bütün vergi güzəştlərinin vaxtının daha 3 il müddətinə uzadılması, turizm sahəsində regional turizmin inkişaf etdirilməsi və turizm subyektlərinin sabit vergi xərclərinin optimallaşdırılması məqsədilə onların əmlak vergisinin 3 il müddətinə 75 faizədək azaldılması, nəqliyyat sektorunda yükdaşımalar üzrə sadələşmiş vergi rejiminin ləğvi, gəlir və mənfəət vergisinə keçid, nəqliyyat sektorunda biznesin əlavə dəyər vergisinin əvəzləşmə imkanlarının yaradılması, yükdaşıma sahəsində biznesə süni xərclərin ötürülməsinin qarşısının alınması ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Biznesin yükünün optimallaşması üzrə nümayəndəlik, mənzil və yemək xərclərinin norma daxilində gəlirdən çıxılan xərclərə aid edilməsi ilə vergi yükünün optimallaşdırılması, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olunan hissəsinin 10 faizdən 15 faizədək qaldırılması, mikrosahibkarlıq subyekti olan fiziki şəxslərin ödədiyi sosial sığorta haqlarının vergi yolu ilə subsidiyalaşdırılması, ödənilmiş sosial sığorta haqları məbləğinin 25 faizinin gəlir vergisi və sadələşdirilmiş vergidən çıxılması, vergi borcu olan subyektlərin borc öhdəliklərinə möhlətin verilməsi üçün meyarların hazırlanması ilə bağlı dəyişikliklər də sənəddə öz əksini tapıb.

Sosial dəstək mexanizmləri üzrə dəyişikliklərdə fiziki şəxslərin hər bir bankda milli valyutada olan əmanətlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsinin gəlir vergisindən tam azad edilməsi, fiziki şəxslərin hər bir bankda milli valyutada olan depoziti 18 ay və daha çox müddətə yerləşdirildikdə, depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsinin 3 il müddətinə gəlir vergisindən azad edilməsi, təhsil haqlarının ödənilməsi üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsinin 1000 manatdan 2500 manatadək qaldırılması, fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş əlavə dəyər vergisinin qaytarılmasına görə əldə olunan gəlirlərin gəlir vergisindən azad edilməsi təklif olunur.

Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Gündəliyin 7-ci məsələsi olan Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Layihənin mahiyyəti ilə bağlı Əli Hüseynli bildirib ki, sənəddə məhdud məsuliyyətli və ya səhmdar cəmiyyətlərinə qarşı pul tələbinə malik olan şəxslərin pul tələblərini əvəzləşdirməklə nizamnamə kapitalına maya qoyması və ya əlavə buraxılmış səhmləri əldə etməsi, maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə isə bu prosesin maliyyə bazarlarını tənzimləyən qanunlarda mühüm iştirak payının əldə olunmasına dair tələblər nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlı müddəalar nəzərdə tutulub.

Layihə barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin müsbət rəyini bildirdikdən sonra sənəd birinci oxunuşda qəbul olunub.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyə daxil olan məsələlərin müzakirəsi noyabrın 15-də davam etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin hakim partiyaları arasında əməkdaşlıq dərinləşir




Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir.

Səfər çərçivəsində noyabrın 14-də "Boğaz şəhidliyi" ziyarət edilib, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi dərin ehtiramla yad olunub.

Nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə keçirilən təntənəli Cümhuriyyət yürüşündə də iştirak edib.

Bundan sonra Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstünlə YAP nümayəndə heyəti və qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Alanın rəhbərlik etdiyi AK Parti nümayəndə heyəti arasında görüş keçirilib.



Görüşdə xalqlarımız və hakim partiyalar arasında əməkdaşlığın əhəmiyyətindən və perspektivlərdən bəhs edilib. Diqqətə çatdırılıb ki, YAP nümayəndə heyətinin 2022-ci ilin dekabr ayında Şimali Kipr Türk Cümhuriyyətinə səfəri çərçivəsində keçirilmiş üçtərəfli görüş yeni formatda işbirliyinin əsaslarının yaradılması baxımından mühüm əhəmiyyətə malik olub və ötən müddət ərzində təmasların sıxlaşdırılması istiqamətində səmərəli fəaliyyət həyata keçirilib.

Bildirilib ki, Azərbaycanın şanlı Zəfəri - ərazi bütövlüyünün və suverenliyinin tam bərpası nəticəsində yaranmış reallıqlar fonunda türk dünyasında da münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, eyni zamanda dost və qardaş xalqlar yeni çağırışlarla üzləşiblər. Belə bir şəraitdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin hakim partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsi xüsusi önəm daşıyır.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər müzakirə olunub.

Noyabrın 14-də həmçinin Şimali Kipr Türk Cümhuriyyətinin qurucusu və ilk prezidenti Rauf Denktaşın və Kipr Türk xalqının azadlıq mübarizəsinin öndərlərindən olan Fazil Küçükün məzarları ziyarət edilib.

YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Zorlu Törenin adından verilən rəsmi ziyafətdə iştirak edib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvləri Pərvin Kərimzadə və Rəşad Mahmudov, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov daxildir.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Tahir BUDAQOV:* "Türk dövlətlərinin hakim siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi zəruridir"

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) səfəri davam edir.



Səfər çərçivəsində noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası (UBP) arasında Anlaşma Memorandumunun imzalanması mərasimi olub.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Cümhuriyyətinin İstiqlal Marşı səsləndirilib. Sonra müasir müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin qurucusu, Böyük Öndər Mustafa Kamal Atatürkün, Şimali Kipr Türk Cümhuriyyətinin qurucusu və ilk prezidenti Rauf Denktaşın, Kipr Türk xalqının azadlıq mübarizəsinin öndərlərindən olan Fazil Küçükün və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.




YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası adından təbriklərini çatdırıb. O, Azərbaycan, Türkiyə və Şimali Kipr türk xalqları arasında münasibətlərin inkişafının mühüm prioritetlərdən biri olduğunu diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan, işğal faktını və separatizmi birdəfəlik aradan qaldıraraq ərazi bütövlüyünü bərpa edən Azərbaycanın regional və beynəlxalq miqyasda önəmli geostrateji reallıqlar formalaşdırdığını vurğulayan Tahir Budaqov ölkəmizin tarixi Zəfərinin türk dövlətləri üçün də yeni imkanlar və perspektivlər yaratdığını bildirib. YAP Sədrinin müavini mövcud gerçəkliklər fonunda türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüslərinin olduqca önəmli olduğunu söyləyib. "Bu kontekstdə türk dövlətlərinin hakim siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də zəruridir", - deyə YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib.



2021-ci il iyunun 2-də Əməkdaşlıq Protokolu imzalayan və ötən müddət ərzində ortaq maraqlara əsaslanan mühüm tədbirlər reallaşdıran Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının münasibətlərinin nümunəvi xarakter daşıdığını diqqətə çatdıran Tahir Budaqov yeni mərhələdə YAP, AK Parti və UBP arasında üçtərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə və qarşılıqlı faydalı əməkdaşlığın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib. YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Anlaşma Memorandumu çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və prioritetləri müəyyənləşdirən çox önəmli sənəddir. "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü, Şimali Kipr Türk Cümhuriyyətinin isə 40-cı ildönümlərində qardaş xalqların hakim siyasi partiyaları arasında Anlaşma Memorandumunun imzalanması mühüm mənəvi-siyasi əhəmiyyətə malik hadisə kimi tarixi önəm daşıyır" deyən YAP Sədrinin müavini əlavə edib ki, memorandumdan irəli gələn vəzifələrin icra olunması, qarşılıqlı səfərlərin həyata keçirilməsi, ortaq maraqlara əsaslanan tədbirlərin reallaşdırılması, fikir və təcrübə mübadiləsinin aparılması xalqlarımız arasında əməkdaşlığın dərinləşməsinə töhfə olacaq, partiyalararası münasibətlərə dinamizm gətirərək müştərək hədəflərə çatmağa imkan verəcək.

AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycan, Türkiyə və Şimali Kipr türk xalqları arasında əlaqələrin inkişafının siyasi öncəliklərdən biri kimi diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Azərbaycanın Qarabağ Zəfərinin regionda yeni nizam yaratdığını söyləyən Efkan Ala ölkəmizin suverenliyini tam bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. Azərbaycan ilə Türkiyənin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini diqqətə çatdıran AK Parti Sədrinin birinci müavini türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu bildirib. "Yeni dönəmdə Azərbaycan, Türkiyə və Şimali Kipr türk xalqları arasında münasibətlərin inkişafı maraqlarımızın təmin olunması və strateji hədəflərin reallığa çevrilməsi baxımından böyük əhəmiyyət daşıyır" deyən Efkan Ala iqtidar partiyaları arasında münasibətlərin bu prosesə layiqli töhfə olacağına inamını ifadə edib.

Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanan Anlaşma Memorandumunun əhəmiyyətindən bəhs edən Efkan Ala "Memorandumda əksini tapan məsələlər bizim niyyətimizi - ortaq dəyərlərə və milli maraqlara əsaslanan münasibətlərin inkişafı istiqamətində iradəmizi əks etdirir, qarşıdakı dövr üçün hədəflərimizi müəyyən edir. Üçtərəfli təmasların sıxlaşdırılması çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinə etibarlı zəmin yaradır. Anlaşma Memorandumu hakim partiyalar arasında məqsədyönlü işbirliyinin yol xəritəsi olacaq, sənəddə əks olunan öhdəliklərin yerinə yetirilməsi bizə yeni uğurlar qazandıracaq", - deyib.

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstün beynəlxalq münasibətlər sistemində hazırkı reallıqlar fonunda türk dünyasının yeni çağırışlarla üzləşdiyini diqqətə çatdırıb. Belə bir şəraitdə türk xalqlarının həmrəylik nümayiş etdirməsinin və səmərəli, nəticəyönümlü əməkdaşlıq qurmasının vacib prioritetlərdən olduğunu bildirən Ünal Üstün Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin bütövlükdə türk dünyası üçün müstəsna əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin qardaşlıq nümunəsi ortaya qoyaraq münasibətlərin inkişafına xüsusi önəm verdiklərini və prinsipial mövqe nümayiş etdirdiklərini söyləyən Baş nazir hakim partiyalar arasında münasibətlərin xalqlarımızın maraqlarının təmin olunmasına yönəldiyini qeyd edib. "Ulusal Birlik Partiyası AK Parti və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafında son dərəcə maraqlıdır" deyən partiya sədri Anlaşma Memorandumunun yeni formatda - üçtərəfli əlaqələr müstəvisində əməkdaşlığa təkan verəcəyini bildirib. "Biz bu gün xalqlarımızın maraqlarının, partiyalarımızın hədəflərinin dəqiq əks olunduğu Anlaşma Memorandumu imzalamaqla qarşılıqlı faydalı əməkdaşlığın möhkəm əsaslarını yaradırıq. Əminəm ki, birlikdə daha böyük uğurlara imza atacağıq", - deyə Ünal Üstün bildirib. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, UBP-nin Sədri Ünal Üstün imzalayıblar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Belarus Milli Məclisinin Respublika Şurasının Sədr müavini Böyük qayıdış proqramı barədə məlumatlandırılıb

Noyabrın 14-də Milli Məclis Sədrinin müavini Adil Əliyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Məclisinin Respublika Şurasının Sədr müavini Valeri Belski ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Adil Əliyev xalqlarımızı birləşdirən ənənəvi dostluq əlaqələrindən söz açıb, bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu diqqətə çatdırıb. O, dövlətlərarası münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini, əlaqələrimizin strateji xarakter daşıdığını, qarşılıqlı faydalı münasibətlərin formalaşmasında və inkişafında dövlət başçıları arasında mövcud olan səmimi dostluq münasibətlərinin, yüksəksəviyyəli dialoqun və qarşılıqlı anlaşmanın mühüm rol oynadığını vurğulayıb.

Görüşdə ikitərəfli əlaqələrimizin möhkəm müqavilə-hüquq bazasının olduğu qeyd olunub, bunun artan ticarət dövriyyəsi, iqtisadi, sosial, mədəni sahələrdə əlaqələrin inkişafına, birgə layihələrin həyata keçirilməsinə müsbət töhfə verdiyi bildirilib.

Ümumi dəyərlərimizdən danışan Adil Əliyev I Avropa Oyunlarının Bakıda, II Avropa Oyunlarının isə Minskdə keçirilməsini əlamətdar hadisə adlandırıb.

Bu gün Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və sabitliyin bərqərar olması üçün unikal tarixi fürsət yarandığını deyən Adil Əliyev bildirib ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub. Müharibənin bitməsindən 3 il keçməsinə baxmayaraq, Ermənistan tərəfi hələ də sülh sazişini imzalamaqdan boyun qaçırır, bu isə regionda kommunikasiyaların açılmasına, sabitliyin bərqərar olmasına imkan vermir.

Qonağa Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə başlatdığı genişmiqyaslı bərpa-quruculuq işlərinin gedişatı barədə məlumat verilib. Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən irimiqyaslı infrastruktur layihələrinin əhəmiyyətindən, ərazilərə geri qayıdan əhali üçün tikilən evlərdən, "ağıllı şəhər" və "ağıllı kənd" kimi layihələrdən danışılıb.

Milli Məclisin Sədr müavini görüşdə həmçinin parlamentlərarası əlaqələrin inkişaf perspektivlərinə toxunub, bu əlaqələrin həm ikitərəfli və həm də beynəlxalq platformalarda uğurla inkişaf etdiyini deyib.

Azərbaycan parlamentində olmaqdan məmnunluğunu bildirən Belarus Respublikası Milli Məclisinin Respublika Şurasının Sədr müavini Valeri Belski ölkəmizə səfərinin məqsədləri və keçirdiyi görüşlər barədə məlumat verib. Qonaq ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini qeyd edib, parlamentlərarası əlaqələrin inkişafında qarşılıqlı səfərlərin, görüşlərin rolunu vurğulayıb. Nümayəndə heyətlərimizin beynəlxalq platformalarda qarşılıqlı faydalı əməkdaşlığı yüksək qiymətləndirilib.

***"Azərbaycan"***

# Haqqın, ədalətin, ləyaqətin zəfəri

8 Noyabr - Zəfər Günündə daha bir möhtəşəm tarix yaşadıq. İlk dəfə olaraq Zəfər günü Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam təmin olunmasının gətirdiyi sonsuz sevinc və qürur hissi ilə qeyd olundu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Zəfər paradını əzəli-əbədi yurdumuz olan Xankəndidə qəbul etdi. Müzəffər ordumuzun ayrı-ayrı qoşun birləşmələri Dövlət bayrağımızın və Şuşa şəhərinə sancılaraq Qələbəmizin rəmzinə çevrilmiş Zəfər bayrağımızın kölgəsində Xankəndinin mərkəzi meydanında qürurla irəlilədilər.



Bu, həmin meydandır ki, separatçılar bir vaxtlar öz kriminal dəstələri ilə orada qondarma hərbi mərasimlər keçirər, bizə gözdağı verərdilər. Həmin dövrlər o meydanda Azərbaycan əsgərinin addım səslərinin eşidilməsi, üçrəngli, aylı-ulduzlu bayrağımızın dalğalanması bizim üçün böyük bir xəyal idi. Lakin bunun nə zamansa gerçəkləşəcəyinə hətta ən bədbin anlarımızda da ümidimizi itirməzdik. O günləri görə biləcəyimizə qəlbimizdə müəyyən tərəddüdlər olsa da, böyük inam da vardı. Tarixin hüdudlarının bizim ömür qismətimizdən bəzən çox-çox geniş olduğunu nəzərə alaraq düşünərdik ki, bəlkə də həmin günləri görmək övladlarımıza, gələcək nəsillərə qismət olar. Şükür ki, bu günlərə şahidlik bizim də qismətimizdə varmış. 30 il ərzində yurd həsrətinin acısından, xalqımızın başına gətirilən müsibətlərin ağırlığından ürəyimizə daman göz yaşlarımız sevinc göz yaşlarına çevrildi. Alqış bu tarixi yaradanlara! Alqış Azərbaycan xalqını ən böyük arzusuna qovuşduran Ali Baş Komandana! Alqış böyük fədakarlıqla düşməni torpaqlarımızdan qovan, separatçıların yuvasını dağıdan, Şuşada, Xankəndidə bayrağımızı ucaldan qəhrəman əsgər və zabitlərimizə!

## Əsrlərin qələbəsi

Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursuna sadiqliklə Azərbaycanı ən qüdrətli çağlarına yetirmiş Prezident İlham Əliyevin tariximizdə yaratdığı misilsiz başlanğıcdır. Azərbaycan 44 günlük müharibədə qazanılmış 8 Noyabr Zəfəri və ardınca 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən 23 saatlıq antiterror tədbiri nəticəsində separatçılar üzərində qazanılan qələbə ilə yeni bir dövrə daxil oldu. Bu mənada Azərbaycan Ordusunun qazandığı Zəfər bir neçə ilin, on ilin deyil, əsrlərin zəfəridir.

Azərbaycan tarixboyu çox ağrılı-acılı yol keçib. Yerləşdiyimiz geostrateji ərazi, zəngin təbii sərvətlərimiz zaman-zaman kimlərinsə iştahasını çəkib. Əsrlərboyu öz taleyimizin sahibi olmamışıq, müqəddəratımıza başqaları qərar verib, başımız üzərindən sonradan taleyimizin bəlasına çevriləcək mürəkkəb oyunlar aparılıb. Torpaqlarımız bölünüb, yağmalanıb, sərvətlərimiz qarət olunub. Bu Vətənin zənginliyinə göz dikən hər kəs Azərbaycandan nə isə qoparmağı fürsət bilib. Tarixi torpaqlarımızda Ermənistan dövləti qurulub, əzəli-əbədi yurdlarımız sərhədlərin o üzündə əsir qalıb. Torpağın köksündəki tarixi izlərimiz, milli nişanələrimiz - toponimlərimiz dəyişdirilərək özgələşdirilib, maddi-mədəniyyət abidələrimiz vandalizmə məruz qalıb, milli yaddaş saxtalaşdırılıb. Əsrlər ərzində hər kəs də bunu sanki normal bir reallıq kimi qəbul edib. Çünki belə bir acı reallıqla barışmaqdan başqa əlacımız olmayıb. Başqalarının bu qərarlarına, qəsbkarlıqlarına qarşı çıxmaq haqqımız tanınmayıb.

Ötən əsrin 80-ci illərinin sonlarına doğru erməni separatçılarının Qarabağda baş qaldırması, dünyanın hər yerindən axın-axın erməni terrorçularının, kriminal ünsürlərin gəlib bu bölgədə yuva qurması, soydaşlarımızın Ermənistan ərazisindəki dədə-baba yurdlarından qovulması da bu reallığın davamı idi. Ümummilli Lider Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindəki yüksək vəzifəsindən uzaqlaşdırılmasını, proseslərə təsir imkanlarının məhdudlaşdırılmasını imkan bilib Azərbaycana qarşı yeni işğal planlarını işə salan ermənilər də, onların havadarları da düşünürdülər ki, bu, yurddan növbəti dəfə yeni ərazilər qoparmaq üçün fürsətdir. İlk mərhələdə buna nail oldular da.

Ötən əsrin 80-ci illərinin sonlarında və müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edən səriştəsiz şəxslərin qətiyyətsizliyindən, ölkədəki xaosdan, hakimiyyət davalarından yararlanaraq Qarabağı, eləcə də ətraf rayonları işğal edəndən sonra erməni separatçılarının planlarına görə məqsəd status-kvonu bir neçə on il ərzində qoruyub, zamanla işğal faktını unutdurmaq idi. Necə ki indiki Ermənistan Respublikasının yerləşdiyi tarixi torpaqlarımızla bağlı bunu edə bilmişdilər. Amma 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışı onların bu planını pozdu. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı çətin sınaqlardan çıxarıb indi yaşadığımız gələcəyə hazırlamağa başladı. Qarabağ probleminin bir an da olsun diqqətdən kənarda qalmasına yol vermədi. Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu, sosial-iqtisadi inkişaf tədbirləri ilə paralel bu taleyüklü məsələni də daim gündəmdə saxladı.

## Möhkəm təməllər üzərində güclü dövlət

Ölkəmizin gələcəyi ilə bağlı böyük arzularının reallaşması üçün bu böyük dövlət adamı 10 il ərzində hər cəhətdən gücləndirdiyi, dünyada tanıtdığı Azərbaycanın taleyini İlham Əliyevə etibar etdi. Prezident İlham Əliyev də Ümummilli Liderin formalaşdırdığı möhkəm təməllər üzərində güclü bir dövlət formalaşdırdı. Sosial-iqtisadi nailiyyətlərinə, qlobal nüfuzuna görə Azərbaycanı regionun lider ölkəsinə çevirdi. Təşəbbüskarı və iştirakçısı olduğu qlobal enerji-kommunikasiya layihələrinin uğurları sayəsində Azərbaycanın beynəlxalq önəmi artdı. Dünyada səsimiz-sözümüz eşidildi.

Azərbaycan Prezidenti bütün dünyada Qarabağ münaqişəsi ilə bağlı aydın təsəvvür formalaşdırmağa nail oldu. Xalqımızın torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizəsinin haqq işi olduğunu, tarixi ədalətə, beynəlxalq hüquqa əsaslandığını sübuta yetirdi. Azərbaycanın bu prinsipial mövqeyini ali tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Ölkəmizə qarşı gələcəkdə hər hansı ittihama əsas verməmək üçün sülh danışıqlarına sona qədər sadiq qaldı. Lakin illər keçdikcə sülhə ümidlər tükənirdi. Yalnız münaqişənin hərbdən başqa heç bir yolunun qalmadığını bütün dünya görüb əmin olandan sonra 30 ilin münaqişəsini cəmi 44 günün içində yoluna qoydu. Bu qədər qısa müddət ərzində düşmənin bütün ordusunu məhv etdi, "dəmir yumruğ"un tutarlı zərbəsi ilə işğalçıların dizini yerə gətirdi. Azərbaycanın ərazi bütövlüyünə, dövlət suverenliyinə aparan strateji yol Vətən müharibəsindəki qələbəmizdən sonra da addım-addım, planlı şəkildə davam etdirildi. Zamanı çatanda separatçıların Xankəndidəki yuvalarının dağıdılmasına cəmi 23 saat gərək oldu. Azərbaycan həyata keçirdiyi 23 saatlıq antiterror əməliyyatı ilə separatçıların ömrünə son qoydu. Onların başbilənləri törətdikləri bəşəri cinayətlərə görə ədalət mühakiməsi qarşısında cavab vermək üçün qandallanaraq Bakıya gətirildilər. Beləliklə, ədalət zəfər çaldı.

## Yeni reallıq

Azərbaycan yaratdığı yeni reallıqla göstərdi ki, ölkəmiz regionda sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın əsas təminatçısıdır. Respublikanı belə bir reallığa yetirməkdən ötrü Prezident İlham Əliyev Ümummilli Liderin ordu quruculuğu siyasətini əzmlə davam etdirərək güclü ordu qurdu və bu siyasət hazırda da davam etdirilməkdədir. Silahlı Qüvvələrimiz həm təchizatına, həm əsgər və zabitlərimizin döyüş ruhuna görə dünyanın ən qüdrətli orduları sırasında qərarlaşıb. Azərbaycan Prezidenti torpaqlarımızın azadlığı uğrunda göz qırpmadan ölümə hazır olan, 44 günlük Vətən savaşına qədər Ali Baş Komandandan hər an əmr gözləyən vətənpərvər, cəsur bir nəsil yetişdirdi. Qeyrət qalamız olan Şuşanı bu nəslin təmsilçiləri qayalardan kəndirlə dırmanaraq, yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılaraq azad etdilər. Bu igidlərimiz Xankəndidə Azərbaycan bayrağını ucaltdılar. Düşmən də, işğal faktının unudulması üçün illərlə onlara dəstək vermis havadarları da gördülər ki, Azərbaycan xalqına yurd itkisini unutdurmaq mümkün deyil. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Mənasız danışıqlarla illəri hədər verərək, mövcud status-kvonu qorumaqdan ötrü min bir fənd işlətməyə çalışırdılar. Düşünmürdülər ki, nə Azərbaycan xalqı əsrlər əvvəlki əlacsız, başqalarının əsarətində olan asılı xalqdır, nə də Azərbaycan dövləti əsrlər əvvəlki Azərbaycandır.

Xankəndidəki paradda çıxışı zamanı Ali Baş Komandan bildirdi ki, Azərbaycan son 20 il ərzində bu günə doğru gedirdi. Hazırlıq işləri aparılır, beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeləri möhkəmləndirilirdi: "Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın".

## Ermənistana və havadarlarına daha bir dərs

Azərbaycan dövləti ərazi bütövlüyümüzü bərpa edib Xankəndidə dövlət bayrağımızı ucaltmaqla Ermənistana və onun xaricdəki havadarlarına daha bir dərs verdi. Onlar Vətən müharibəsindəki Qələbəmizdən sonra yeni status-kvonun qorunub saxlanmasında maraqlı idilər. Hesab edirdilər ki, dinc əhalini girovluqda saxlayan "artsax"ın hərbi-xunta rejimi yenə öz mövcudluğunu davam etdirə biləcək. Azərbaycanın təhlükəsizliyini təhdid altında saxlayacaq və biz hansısa təzyiqlərdən qorxaraq buna göz yumacağıq. Onlar bu ehtimalı reallaşdırmaq üçün dövlətimizə, dövlət rəhbərimizə qarşı təzyiq və təhdidləri müxtəlif istiqamətlərdən həyata keçirirdilər. Əfsuslar olsun ki, Avropa İttifaqı, ABŞ, Fransa və digər bu kimi ölkələr 30 illik işğal dövründəki mövqelərinə "sadiq" qalaraq Azərbaycana qarşı ikili standartları yenə davam etdirirdilər. 30 il ərzində heç bir ciddi nəticə ortaya qoya bilməyəndən sonra ömrünü çoxdan başa vurmuş Minsk qrupunun yenidən dirildilməsinə uğursuz cəhdlər göstərirdilər. Qərbin guya ermənilərin Azərbaycanda yaşaya bilməyəcəyi və buna görə də ayrılmasının zəruriliyini ehtiva edən hüquqi proseduru işə salması məqsədilə müəyyən hazırlıqlar aparılırdı. Dövlətimizə qarşı çirkin kampaniyalar, BMT, Avropa Parlamenti, Avropa Şurası kimi beynəlxalq mexanizmlərin potensialından yararlanmaq cəhdləri, sanksiya hədələri ara vermirdi. Bununla çalışırdılar ki, Azərbaycan Prezidentini gələcək planlarından çəkindirsinlər, Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsinə imkan verməsinlər, dövlətimiz 2020-ci ilin nəticələri ilə məhdudlaşmaq məcburiyyətində qalsın.

Amma Prezident İlham Əliyev Azərbaycan xalqını zəfərdən zəfərə aparan addımları ilə ermənilərə də, onların təəssübkeşlərinə də sübut etdi ki, tarixin ən qüdrətli Azərbaycanını, bu dövlətin rəhbərini heç bir təzyiq-təhdidlə müstəqil mövqeyindən çəkindirmək, milli maraqlardan geri addım atmasına zərrə qədər də nail olmaq mümkün deyil.

Müzəffər Ali Baş Komandanın qətiyyəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın milli birliyi və əzmkarlığı sayəsində Azərbaycan ilk dəfə olaraq itirilmiş torpaqlarını geri ala bildi, böyük güclərin 200 ildən bəri regionda həyata keçirdikləri erməni layihəsini iflasa uğratdı. Azərbaycanın bu Zəfəri ilə regionda yeni bir reallıq yaratdı. Bu reallıq qəsbkarlığı, separatizmi, məkrli hiylələri kənara qoyub qarşılıqlı inkişaf marağında olan bütün bölgə dövlətləri üçün yeni imkandır. Yaşadığımız coğrafiyanı tərəqqi, inkişaf meydanına çevirmək üçün böyük bir fürsətdir. Cənubi Qafqazın geostrateji mövqeyindən müasir dünyamızın yeni çağırışlarına uyğun yararlanmaq, kommunikasiya imkanlarından birgə faydalanmaq üçün son dərəcə əlverişli mühitdir.

Azərbaycan Prezidenti Xankəndidə keçirilən paraddakı çıxışında düşmənə önəmli xəbərdarlıq mesajı da verdi: "Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".

## Bölgəyə ədalət və inkişaf gətirən Lider

Azərbaycan müharibəni də xalqımıza xas ləyaqətlə apardı. Dövlətimizin sosial-iqtisadi gücü, maliyyə imkanları, xarici tərəfdaşlarla qarşılıqlı güvən və etibara əsaslanan münasibətləri hesabına alınmış innovativ silahlarla XXI əsrin müharibəsini etdi. Həm 44 günlük Vətən müharibəsində, həm antiterror tədbirləri zamanı aparılmış hərbi əməliyyatlarda düşmənin heç bir mülki obyekti hədəfə alınmadı. Yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı. Qarşı tərəfdə mülki əhaliyə heç bir xətər toxunmadı. Ermənilərin Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərinin qisası yalnız hərb meydanında alındı. Xankəndidə separatçı rejimin mövcud olduğu bir neçə ayda da Laçın yolunda erməniəsilli mülki əhalinin Azərbaycanın sərhəd-buraxılış məntəqəsində yoxlamadan keçərək sərbəst gediş-gəlişinə şərait yaradıldı. Dövlətimizin bu məsələlərdə nümayiş etdirdiyi mövqe, dünyaya örnək olan humanizmi, insanpərvərliyi o qədər aydındır ki, Ermənistanın beynəlxalq aləmdəki təəssübkeşləri deməyə söz belə tapa bilmirlər.

"Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi", - Azərbaycan Prezidenti Xankəndidəki çıxışı zamanı bildirdi.

Cənubi Qafqaz bölgəsində illərlə başqalarının əlbuyruğu rolunu oynamağa razılaşmış ermənilər ümid etməyə dəyər ki, nəhayət, öz yanlışlarından nəticə çıxaracaqlar. Qonşulara qarşı düşmən münasibəti, kin-küdurəti, separatizm cəhdlərini, işğal arzularını kənara qoyub sivil həyat tərzində yaşamağı öyrənəcəklər. Anlayacaqlar ki, Cənubi Qafqazın gələcəyində xoşbəxt həyata qovuşmaları üçün onların da nicatı məhz Azərbaycanda, bölgəyə inkişaf, rifah gətirən dövlətimizin başçısı, Prezident İlham Əliyevin yürütdüyü siyasətdədir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Mərakeşli investorlar Azərbaycanın azad olunmuş ərazilərində biznes imkanlarını nəzərdən keçirməyə dəvət edilib



Noyabrın 14-də xarici işlər naziri Ceyhun Bayramov Mərakeşdə keçirilən Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın 2-ci iclası çərçivəsində təşkil edilmiş I Azərbaycan-Mərakeş Biznes Forumunda iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən nazir Ceyhun Bayramov Birgə Komissiyanın iclası çərçivəsində təşkil olunan bu forumun ikitərəfli ticarətin genişləndirilməsi və qarşılıqlı investisiyaların təşviqi sahəsində irəliləyişlərin əldə olunmasına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Nazir ikitərəfli iqtisadi sahədə, o cümlədən ticarət və investisiyalar, enerji, nəqliyyat, kənd təsərrüfatı, azad iqtisadi zonalar çərçivəsində əməkdaşlıq və digər sahələrdə iki ölkə arasında istifadə edilməmiş potensialımızın mövcudluğunu bildirib.

C.Bayramov Azərbaycanın Şərqlə Qərbin kəsişməsində strateji yerləşməsinin, Mərkəzi Asiyaya yaxınlığının investorlar üçün daha bir üstünlük olduğunu diqqətə çatdırıb.

Azərbaycanın aparıcı şirkətlərinin Mərakeşdə həyata keçirilən infrastruktur layihələrində iştirakının iqtisadi əməkdaşlığımıza əlavə fayda verə biləcəyi vurğulanaraq, Azərbaycan və Mərakeşin strateji coğrafi yerləşməsinin ölkələrimizin müvafiq ticarət limanları arasında əməkdaşlığı inkişaf etdirməyə və təcrübə mübadiləsi aparmağa imkan verəcəyi vurğulanıb.

Nazir Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Bakı Limanı tərəfindən mərakeşli həmkarları ilə müvafiq anlaşma memorandumlarının imzalanmasını yüksək qiymətləndirib.

Ceyhun Bayramov Mərakeş investorlarını və şirkətlərini Ələt Azad İqtisadi Zonasında, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində və onun hüdudlarından kənarda biznes və investisiya imkanlarını nəzərdən keçirməyə dəvət edib.

# ATƏT PA-nın prezidenti ilə DTX-də görüş



Noyabrın 14-də Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev ATƏT Parlament Assambleyasının prezidenti xanım Pia Kaumanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Qarabağda aparılmış hərbi əməliyyatlardan sonra Cənubi Qafqaz regionunda hökm sürən hazırkı durum, Qarabağ ərazisində insanların təhlükəsiz şəkildə yaşamasının təmin edilməsi, həmin bölgənin yüksək həddə minalarla çirkləndirilməsinin doğurduğu fəsadlar və münaqişə nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş şəxslərin taleyinin qeyri-müəyyənliyi əsas müzakirə mövzusu olmuşdur.

Komissiya sədri Əli Nağıyev hazırda dövlətimizin işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı yenidənqurma işlərini apardığını, lakin sözügedən ərazilərin əhəmiyyətli hissəsinin Ermənistan tərəfindən minalanmasının və dəfələrlə danışıqların mövzusu olmasına baxmayaraq, Azərbaycan tərəfinə mina xəritələrinin verilməməsinin və ya minaların yerlərinin qeyri-dəqiq təqdim olunmasının bərpa-quruculuq prosesinin sürətlə reallaşdırılmasına ciddi maneə törətdiyini qeyd etmişdir. Mina terroru qurbanlarının hər ötən gün daha da artdığı nəzərə alınaraq digər beynəlxalq təşkilatlarla yanaşı, ATƏT-in də Ermənistana dəqiq mina xəritələrini verməsi üçün təzyiq göstərməsinin zəruriliyi vurğulanmışdır.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində 4000-ə yaxın vətəndaşımızın itkin düşməsi məsələsinə toxunan Əli Nağıyev bildirmişdir ki, torpaqlarımızın işğaldan azad olunması onların axtarışını asanlaşdırsa da, lakin bununla belə xeyli sayda soydaşımızın taleyinə aydınlıq gətirmək hələ də mümkün olmamışdır. Ermənistan bu istiqamətdə də qeyri-konstruktivlik nümayiş etdirərək azərbaycanlıların kütləvi basdırıldığı məzarlıqların yerlərinin tapılması sahəsində əməkdaşlıq etməkdən müxtəlif bəhanələrlə boyun qaçırır.

Dövlət Komissiyasının sədri Əli Nağıyev bütün bunlara baxmayaraq, Azərbaycanın bölgədə davamlı sülhün və sabitliyin bərqərar olması üçün səylərini əsirgəmədiyini, daima qonşuluq və dinc yanaşı yaşama prinsiplərini üstün tutaraq Qarabağda yaşayan erməniəsilli şəxslərin təhlükəsizliyinə hərtərəfli təminat və zəmanət verdiyini, Ermənistanla münasibətlərin normallaşdırılmasının və sülh müqaviləsinin imzalanmasının vacib olduğunu demişdir.

Söhbət zamanı regionda dayanıqlı sülhün yaranmasına əlverişli imkanın mövcud olduğu bir vaxtda bəzi dövlətlərin bölgədə vəziyyəti yenidən gərginləşdirmək məqsədilə Ermənistanı silahlandırmasının qəbuledilməzliyi, belə halların yenidən müharibənin alovlanmasına səbəb olacağı qonağın diqqətinə çatdırılmışdır.

ATƏT Parlament Assambleyasının prezidenti xanım Pia Kauma isə öz növbəsində təmsil etdiyi təşkilatın Azərbaycanla Ermənistan arasında etimad quruculuğu prosesinə lazımi dəstək verə biləcəyini və bölgənin gələcək təhlükəsizliyi ilə bağlı öz mövqeyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidməti***

# Mədət Quliyev "Dubai Airshow-2023" sərgisi çərçivəsində bir sıra görüşlər keçirib

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində "Dubai Airshow-2023" 18-ci aviasiya sərgisi davam edir.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sərginin ikinci günündə müdafiə sənayesi naziri Mədət Quliyevin Birləşmiş Ərəb Əmirliklərinin müdafiə işləri üzrə dövlət naziri Məhəmməd Əhməd Əl Bovardi ilə görüşü olub.

Görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Sonra M.Quliyev İtaliya Respublikasının "Leonardo" və BƏƏ-nin EDGE şirkətlərinin rəhbər şəxsləri ilə görüşüb.

Görüşlərdə hər iki şirkətin istehsal etdiyi aviasiya vasitələri haqqında geniş məlumat verilib, qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Pakistan arasında hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri davam edir.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin rəhbər heyəti Pakistan İslam Respublikasının Aviasiya Kompleksinin sədri aviasiya vitse-marşalı Nadim Axtar Xan ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.



# Heydər Əliyev İli 2023

*Əvvəli 1-ci səh.*

# Mükəmməl təhlükəsizlik sisteminin banisi

Heydər Əliyev çıxışlarının birində Azərbaycanın həmin dövrünü belə xarakterizə edir: "Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayanda çox çətin və ağır vəziyyətdə idi. Biz artıq təhlükəsizliyimizi özümüz təmin etməli idik. O illərdə Azərbaycanda rəhbərlikdə olan insanların səriştəsizliyi nəticəsində ölkədə proseslər çox mənfi istiqamətdə gedirdi - xaos, anarxiya, hərc-mərclik, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, torpaqlarımızın itirilməsi, vətəndaş müharibəsi. Bütün o illər bizim üçün çox ağır, çətin keçirdi və Azərbaycanın müstəqil dövlət ölkə kimi yaşaması sual altında idi".

Belə ağır və gərgin şəraitdə ölkəyə rəhbərliyə başlayan Ulu Öndər Heydər Əliyevin ilk növbədə və xüsusi diqqət yetirdiyi məsələ respublikamızın milli və dövlətçilik maraqlarını təmin edə biləcək düzgün siyasi-strateji kursun müəyyən olunması və onun əsasında Azərbaycanın etibarlı təhlükəsizlik və müdafiə siyasətinin hazırlanaraq həyata keçirilməsi idi. Bütün bu işləri isə son dərəcə mürəkkəb daxili siyasi-iqtisadi vəziyyətdə, Ermənistanın Azərbaycana qarşı getdikcə genişlənən hərbi təcavüzü və ölkəmizə olan çoxsaylı xarici təzyiq və təhdidlər şəraitində həyata keçirmək lazım idi.

Heydər Əliyev böyük siyasətçi, təcrübəli dövlət xadimi idi və bu mənada həmin çətin situasiyada respublikamızın qarşısında dayanan mürəkkəb məsələləri yalnız onun siyasi dühası, möhkəm iradəsi və qətiyyəti həll edə bilərdi. Heydər Əliyev hələ sovetlər birliyi dövründən respublikamızda təhlükəsizliklə bağlı bünövrəsini qoyduğu işləri müasir dövrün tələb və çağırışlarına uyğun əzmlə və cəsarətlə həyata keçirməyə başladı.

## Ordu quruculuğu ilə başlayan təkmil strategiya

Çağdaş dövrümüzdə "dövlətin təhlükəsizliyi" anlayışı məhdud sahə ilə kifayətlənməyərək, çoxşaxəli siyasi-hərbi və sosial-iqtisadi məqsədləri özündə birləşdirən vəzifələrdən ibarətdir. 1993-cü ildə dövlətimizin bu sahədə qarşısında dayanan vəzifələrin miqyası isə daha böyük idi və əsas milli prioritetlərin həyata keçirilməsinin nəinki institusional, hətta nəzəri əsaslarını belə sıfırdan başlamaq lazım idi. Ulu Öndərin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin bir qisminə nəzər salmaqla dahi şəxsiyyətin dövlətimizin və xalqımızın təhlükəsizliyinin və etibarlı gələcəyinin təmin olunması, hər cür təhdidlərdən müdafiəsi naminə hansı fədakarlıqları göstərdiyini görərik.

Bu sırada nizami və vahid komandanlığa əsaslanan ordu quruculuğu Heydər Əliyevin təhlükəsizlik strategiyasının praktik olaraq həyata keçirilməsinin ilkin addımlarından biri kimi tariximizdə xüsusi yer tutur. Azərbaycanın müstəqilliyi 1991-ci ildə bərpa olunsa da, vahid komandanlığa əsaslanan, mütəşəkkil, ən əsası, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhlükənin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra mümkün oldu.

Ulu Öndər görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də peşəkar hərbçi idi. Məhz bu amil özünü onun rəhbərliyi ilə ordu quruculuğunun yüksək peşəkarlıqla həyata keçirilməsində göstərdi. Əsası 1993-cü ilin noyabrında Ulu Öndər Heydər Əliyevin xalqa müraciəti ilə qoyulan bu ordu nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldı, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli rayonu və Murov dağı istiqamətlərində yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji yüksəklikləri azad etdi.

Heydər Əliyevin ilk gündən təhlükəsizlik strategiyasının əsas istiqamətlərindən birini daxili siyasi-ictimai sabitliyin təmin edilməsi, hər bir vətəndaşın qanunla müəyyən edilmiş hüquq və azadlıqlarının qorunması təşkil etmişdir. Buna nail olmaq üçün respublikamızın hüquq-mühafizə orqanlarının fəaliyyətinin də yeni keyfiyyət mərhələsinə yüksəldilməsi, bu sahədə institusional dəyişikliklərin, müasir çağırışlara cavab verən islahatların həyata keçirilməsi, bir sözlə, onların fəaliyyətinin dövlətin və vətəndaşların maraqlarına cavab verən səviyyədə qurulması Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonrakı dövrə təsadüf edir. "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli fərmanla Heydər Əliyevin qarşıya qoyduğu təxirəsalınmaz vəzifələrin icrası nəticəsində ölkədə kriminogen sahədə köklü dəyişikliklər baş verdi, dövlətin iqtisadi əsaslarının təhlükəsizliyi, vətəndaşlar və bütövlükdə cəmiyyətimiz üçün narahatlıq doğuran mütəşəkkil cinayətkarlığın, reketçiliyin qarşısı alındı, qanunçuluq və hüquq qaydası təmin edildi.

## Heydər Əliyev bütün imkanlardan dövlətimizin milli maraqlarının təmin edilməsi üçün səmərəli yararlanmışdır

Qeyd etdiyimiz kimi, dövlətin təhlükəsizliyi geniş anlayışdır və təcrübəli dövlət xadimi kimi Heydər Əliyev bu sahədə bütün mümkün imkanlardan milli maraqların təmin edilməsi üçün səmərəli şəkildə yararlanmışdır. Bu baxımdan Heydər Əliyevin təməllərini qoyduğu təhlükəsizlik strategiyasının digər istiqamətlərini respublikamızın regional və qlobal mövqelərinin möhkəmləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması təşkil etmişdir.

Bu sırada Heydər Əliyevin 1994 və 1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyalarında çıxışlarını, müxtəlif beynəlxalq təşkilatlarda keçirdiyi görüşləri qeyd etmək yerinə düşər. Ümummilli Lider bütün beynəlxalq platformaların tribunalarından Azərbaycanın haqq səsini, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan etməklə həm də respublikamızın təhlükəsizliyinə olan təhdidləri diqqətə çatdırmışdır.

Regiondakı və beynəlxalq münasibətlər sistemindəki prosesləri diqqət mərkəzində saxlayan Heydər Əliyev Avroatlantik təhlükəsizlik institutları ilə əlaqələrə xüsusi önəm verirdi. Çünki bu istiqamətdə əməkdaşlıq əlaqələrinin yaradılması və dərinləşdirilməsi ilk növbədə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzü faktının beynəlxalq təşkilatların vasitəsilə dünya, o cümlədən Avropa səviyyəsinə çıxarılmasına imkan verirdi. Düzdür, ATƏT və Avropa Şurası kimi təşkilatlar ikili standartlardan çıxış edərək Azərbaycan torpaqlarının işğalına son verilməsi üçün Ermənistana qarşı təsirli mexanizmlərdən və ya məcburetmə tədbirlərindən istifadə etmədilər. Bununla belə, onların qəbul etdikləri müxtəlif sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunması ölkəmizin uğuru idi. Çünki həmin sənədlər nəinki danışıqlar prosesində, hətta problem müharibə yolu ilə həll olunacağı halda respublikamızın mühüm diplomatik silahları idi. Məsələn, 1996-cı ildə ATƏT-in Lissabon sammitində Heydər Əliyev təşkilatın üzvü olan 53 Avropa ölkəsinin Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklənməsinə nail oldu. Lissabon sammiti respublikamızın dövlət maraqlarının tam təmin olunduğu siyasi tədbir kimi tarixə düşdü, Qarabağ münaqişəsinin həllinin baza formulu məhz bu görüşdə müəyyən edildi. Yaxud Avropa Şurası Parlament Assambleyasının 25 yanvar 2005-ci ildə qəbul etdiyi 1416 saylı qətnaməsini misal göstərmək olar. Qətnamədə Azərbaycan ərazisinin xeyli hissəsinin işğal altında olduğu, Qarabağ bölgəsinə separatçı qüvvələrin nəzarət etdiyi bəyan edilmişdir. Əlbəttə, bütün bunlar Qarabağ probleminin güc yolu ilə həll olunacağı halda Azərbaycana haqq qazandıran beynəlxalq hüquqi məsələlər idi. 44 günlük Vətən müharibəsinin gedişatı da bunu təsdiq etdi. Ermənistanın Azərbaycana qarşı qlobal səviyyədə diplomatik cəbhə yarada bilməməsinin əsas səbəblərindən biri məhz bu cür qətnamələrlə beynəlxalq diplomatik təhlükəsizlik immunitetinin yaradılması idi.

Azərbaycanın hərbi təhlükəsizliyi ilə bağlı prioritetlərini təmin etmək məqsədilə Heydər Əliyev nüfuzlu hərbi-siyasi təşkilat olan NATO ilə əməkdaşlığa çox böyük üstünlük verirdi. 1994-cü ilin may ayında Heydər Əliyevin Brüsselə səfəri zamanı təməli qoyulan Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində müxtəlif sənədlər imzalanmış, əməkdaşlıq əlaqələrinin təməli qoyulmuşdur. NATO Ermənistanın işğal siyasətinə qarşı qətiyyətli mövqe ortaya qoymasa da, bu təşkilatla əməkdaşlıq Azərbaycanda ordu quruculuğunun müasir standartlar səviyyəsində həyata keçirilməsində, Silahlı Qüvvələrimizdə NATO standartlarının tətbiq olunmasında mühüm rol oynamışdır.

1994-cü ildə dünyanın tanınmış neft şirkətləri ilə Azərbaycan arasında "Əsrin müqaviləsi"nin imzalanması yalnız ölkəmizin neft strategiyasının uğurla reallaşması və gələcək iqtisadi inkişafın etibarlı təməllərinin yaradılması deyildi. Bu, həm də Azərbaycanın təhlükəsizlik konsepsiyasına Heydər Əliyev tərəfindən böyük müdrikliklə əlavə edilən olduqca mühüm, həm də qlobal məzmun daşıyan siyasi bənd idi. Tarixdə ilk dəfə olaraq Heydər Əliyevin sayəsində Xəzər neftinin alternativ marşrutla dünya bazarlarına çıxarılması ilə bağlı razılaşmaların əldə olunması, Bakı-Tbilisi-Ceyhan neft xəttinin təməlinin qoyulması, respublikamızın qlobal enerji müzakirələrindəki yerinin möhkəmlənməsi Azərbaycanın regional və beynəlxalq təhlükəsizliyini gücləndirən, onu qlobal səviyyədə söz sahibinə, mühüm tərəfdaşa çevirən siyasi-iqtisadi faktorlar idi.

Beləliklə, Azərbaycanın müasir müstəqillik tarixində məhz Ulu Öndər Heydər Əliyevin xalqımızın istək və tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin və vətəndaşlarının bütün təhdidlərdən etibarlı şəkildə müdafiəsinə xidmət edən effektiv təhlükəsizlik siyasətinin həyata keçirilməsinə başlanılmışdır. Ötən əsrin 90-cı illərinin ortalarına doğru bütün daxili problemlərin tam şəkildə aradan qaldırılması, hakimiyyətin zorla dəyişdirilməsi cəhdlərinin qarşısının alınması və bu qeyri-konstitusion ənənəyə son qoyulması, ictimai-siyasi sabitliyin bərpa olunması, iqtisadi təhlükəsizliyimizin təmin edilməsi, ordu quruculuğu istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılması, "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz mövqelərini möhkəmləndirməyə başlaması ilk növbədə düzgün milli təhlükəsizlik siyasətinin həyata keçirilməsindən xəbər verirdi.

## Prezident İlham Əliyevin fəaliyyətində təhlükəsizliyin etibarlı şəkildə təmin olunması prioritetdir

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin banisi olduğu milli təhlükəsizlik sistemi ötən 20 ildə Prezident İlham Əliyev tərəfindən dövrün tələb və çağırışlarından irəli gələrək daha da möhkəmləndirilmişdir. Bu dövrün mənzərəsi göstərir ki, həyata keçirilmiş institusional islahatların və qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində Azərbaycanın təhlükəsizlik arxitekturası istənilən təhdidin qarşısında sarsılmaz sipərə çevrilmişdir.

Məlumdur ki, son onilliklər bütün dünyada sürətli dəyişikliklər baş vermişdir. Təkcə XXI əsrin ötən 23 ilində dünyada baş verən terror hadisələrinin sayı bütövlükdə XX əsrdə baş verən terror hadisələrinin sayına bərabərdir. Bu dövrdə yeni müharibə ocaqlarının yaranması, transmilli mütəşəkkil cinayətkarlığın genişlənməsi, insanların kütləvi miqrasiyası dövlətləri və bütövlükdə bəşəriyyəti yeni təhdidlərlə üz-üzə qoymuşdur. Bütün bunlarla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinin tələblərinin pozulması və ya işləməməsi, maraqlar kəsişməsində və hüquqların təmin edilməsində güc amilinin ön plana çıxması ayrı-ayrı dövlətlərin öz təhlükəsizlik konsepsiyalarına yenidən baxmalarını şərtləndirmişdir.

Bütün bunlardan irəli gələrək Prezident İlham Əliyevin fəaliyyətində milli maraqlar fonunda formalaşan milli təhlükəsizliyin etibarlı şəkildə təmin olunması əsas yerlərdən birini tutur. Bunu sözdə deyil, Azərbaycan dövlətinin praktiki fəaliyyətində, bu sahədə həyata keçirdiyi kompleks tədbirlər sistemində aydın görmək mümkündür.

Öncə onu qeyd etmək yerinə düşər ki, bu dövrdə təhlükəsizliklə bağlı təkmil qanunvericilik bazası yaradılmışdır. Məsələn, Azərbaycan Respublikasının təhlükəsizlik siyasətinin əsas müddəaları 2004-cü il iyunun 29-da Milli Məclis tərəfindən qəbul olunmuş "Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununda" öz əksini tapmışdır.

Respublikamızın müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 23 may 2007-ci ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası təsdiq olunmuşdur. Bu konsepsiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, beynəlxalq aləmə inteqrasiyasını, xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, respublikamızda şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

Milli Məclis tərəfindən 2010-cu ilin iyun ayında təsdiq edilən Azərbaycan Respublikasının Hərbi doktrinası isə respublikamızın təhlükəsizlik strategiyasının tərkib hissəsi olaraq vətəndaşın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir. Hərbi doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması ilə bağlı məsələlərə dair Azərbaycan Respublikasının mövqeyini əks etdirir.

## Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir

Azərbaycanın təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri respublikamızın karbohidrogen ehtiyatlarının təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarılması və əldə olunan gəlirlərin ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir. Nəzər yetirsək görərik ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi bu sahədə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməklə respublikamıza yeni qlobal siyasi və iqtisadi dividendlər gətirmişdir. Belə ki, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına alternativ yollarla çıxarılmasına nail olunması, ən nəhayət, Azərbaycanın həm də "Cənub qaz dəhlizi"ni yaratmaqla regionun əsas təbii qaz ixracatçısına çevrilməsi respublikamızın milli təhlükəsizliyinə və iqtisadi inkişafına böyük töhfələr verməklə yanaşı, ölkəmizin beynəlxalq və regional təhlükəsizlikdə əsas söz sahiblərindən birinə çevrilməsini də şərtləndirmişdir.

Azərbaycan eyni zamanda Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən geostrateji nəqliyyat qovşağına çevrilmişdir. Bu istiqamətlərdə ən səmərəli nəqliyyat dəhlizləri bu gün Azərbaycandan keçir və beynəlxalq yollar həm də respublikamızda kəsişir. Azərbaycandan keçən tranzit yüklərin həcminin ildən-ilə artması bu istiqamətdə marşrutların səmərəli olması ilə yanaşı, həm də təhlükəsiz olmasından xəbər verir ki, bu da dövlətimizin böyük uğurudur.

Ümumiyyətlə isə, həm enerji dəhlizlərinin yaradılması, həm də Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi bu sahədə təhlükəsizlik tədbirlərinin davamlı və operativ olmasını tələb edir, təhlükəsizliyə qarşı təhdidlərin müxtəlif formalarının yarandığı bir şəraitdə bu sahədə çevik fəaliyyət ortaya qoymağı ölkəmiz üçün vacib vəzifəyə çevirir. Əvvəldə də qeyd etdiyimiz kimi, texniki inkişaf bu gün bütün dünyada terrorçuluğun və cinayətkarlığın yeni formalarını yaratmış, kiberterrorçuluq və kibercinayətkarlıq aktual problem kimi son onilliklərdə özünü daha qabarıq göstərməyə başlamışdır. Bu gün Azərbaycan öz inkişafının, xüsusən təhlükəsizliyin təmini sahəsində həyata keçirdiyi fəaliyyətin elə bir səviyyəsinə çatmışdır ki, istənilən təhdidin qarşısını almağa qadirdir.



## Silahlı Qüvvələrin döyüş hazırlığı ən müasir standartlar səviyyəsinə çatdırıldı

Ötən 20 il ərzində respublikamızın təhlükəsizliyini təmin edən sektorun, bu sahəyə cavabdeh olan strukturların səmərəli fəaliyyətini təşkil etmək üçün Prezident İlham Əliyev zəruri tədbirlərin görülməsi istiqamətində çox mühüm qərarlar qəbul etmişdir. Xüsusilə qeyd edilməlidir ki, təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən orqan və qurumlar içərisində ölkəmizin hərbi təhlükəsizliyinin qarantı olan Azərbaycan Ordusunun, bütövlükdə Silahlı Qüvvələrin yüksək döyüş hazırlığına nail olmaq üçün çox səmərəli və məqsədyönlü islahatlar həyata keçirilmişdir.

Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdir: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Eyni zamanda İlham Əliyev Vətən müharibəsinə qədər hər zaman açıq şəkildə bildirmişdir ki, əgər Ermənistanla aparılan sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan güc yolu ilə ərazilərini işğaldan azad edəcəkdir. Bu məqsədlə Prezident Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılmasını xüsusilə diqqət mərkəzində saxlamış, silahlı qüvvələrimizin tərkibini təşkil edən bütün qoşun növlərinin döyüş imkanları aparılan hərbi islahatlarla ən modern səviyyəyə çatdırılmışdır. Bu məqsədlə aparıcı hərbi sənaye kompleksi olan ölkələrlə sıx əməkdaşlıq həyata keçirilmiş, ən müasir döyüşlərin aparılmasına imkan verən hərbi texnikalar qoşunlarımızın arsenalına daxil edilmişdir.

Azərbaycan Prezidentinin modern hərbi quruculuq istiqamətində atdığı məqsədyönlü addımlar, həyata keçirdiyi kompleks tədbirlər qısa zamanda Silahlı Qüvvələrimizi dünyanın ən qüdrətli hərbi güclərinin sırasında qərarlaşdırdı. Hərbi paradlarda xalqımız ordumuzun sürətlə yüksələn döyüş imkanlarına şahidlik etdi.

Ermənistan öz ordusu ətrafında miflər yaradanda, məğlubedilməzlik yalanları uyduranda və danışıqlar prosesini imitasiya edəndə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müasir hərbi çağırışlar əsasında hərbi quruculuq həyata keçirmiş, sülh prosesinin baş tutmayacağı təqdirdə torpaqlarımızın hərbi yolla azad edilməsi üçün etibarlı zəmin formalaşdırmışdır. Zaman Prezident İlham Əliyevin nə qədər uzaqgörən siyasət yürütdüyünü təsdiq etdi.

## Ərazi bütövlüyümüzün bərpası Azərbaycanın təhlükəsizlik siyasətinin təntənəsidir

Son dövrlərədək Azərbaycanın milli təhlükəsizliyinin əsas problemi və hərbi-geostrateji vəzifəsi artıq keçmişdə qalmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, respublikamızın pozulmuş ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarət olmuşdur. Bunun üçün ölkə rəhbərliyi bütün istiqamətlərdə fəal iş aparmış və torpaqlarımızın işğaldan azad edilməsi dövlət siyasətinin mərkəzində dayanmışdır.

Azərbaycan sülh prosesinə sadiq olsa da, Ermənistanda 2018-ci ildə baş verən hakimiyyət dəyişikliyindən sonra iqtidara gələn qüvvələrin yürütdüyü siyasət nəticə etibarilə danışıqların tamamilə mənasız olması, Azərbaycan üçün yeni təhdidlər yaradan hərbi-siyasi fəaliyyətin ortaya qoyulması ilə müşayiət olunmağa başlamışdı. Belə ki, bu ölkənin baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır, nöqtə" deməsi, Azərbaycana qarşı hərbi ritorikasını gücləndirməsi, ölkəmizə qarşı 7 şərtin irəli sürülməsi, Ermənistanın ozamankı müdafiə nazirinin "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasından dəm vurması, işğal edilmiş Azərbaycan ərazilərinə Livan və Suriya ermənilərinin köçürülməsi və bu ərazilərdə Ermənistanın yeni hərbi qüvvələr yerləşdirməsi, dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatın törədilməsi Azərbaycanın təhlükəsizliyi üçün ciddi təhdidlər yaratmaqla hərbi əməliyyatların alovlanma ehtimalının reallığa çevrilməsinə istiqamətlənmişdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatından sonra Azərbaycan Silahlı Qüvvələrinin başladığı hərbi əməliyyatlar cənab İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun qüdrətinin, xalqımızın milli həmrəyliyinin göstəricisi olmaqla bərabər, həm də respublikamızın malik olduğu mükəmməl təhlükəsizlik konsepsiyasının təntənəsinə çevrildi. Bu konsepsiyanın əsasında həyata keçirilmiş tədbirlər 44 günlük müharibə zamanı Azərbaycanın həm hərb meydanında, həm də siyasi-diplomatik sahədəki qələbələrinin təməlində dayandı.

Vətən müharibəsindən ötən 3 il ərzində baş verənlər isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Nəyi necə və nə vaxt etmək lazımdır - bunu mən bilirəm" sözlərinin təsdiqidir. 2017-ci ilədək həyata keçirdiyi fəaliyyətlə torpaqlarımızın işğaldan azad edilməsi üçün əlverişli zəmin, etibarlı təhlükəsizlik sistemi formalaşdıran Prezident İlham Əliyev ötən 3 il ərzində hərbi-siyasi uzaqgörənliklə və böyük təmkinlə əzəli torpaqlarımız olan Qarabağda milli suverenliyimizi tam təmin etdi. Üç il ərzində baş vermiş bir neçə mühüm hadisə - Qarabağda həyata keçirilmiş Fərrux, Sarıbaba-Qırxqız və "Qisas" əməliyyatları, Laçında dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılması bizi addım-addım bu məqsədə yaxınlaşdırdı. Bu ilin sentyabrın 19-20-də keçirilmiş Azərbaycan Silahlı Qüvvələrinin növbəti mükəmməl hərbi əməliyyatı olan antiterror tədbirləri nəticəsində isə Qarabağdakı erməni separatizminə birdəfəlik son qoyuldu. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən oktyabr ayının 15-də Xankəndi başda olmaqla, Xocalıda, Əsgəranda, Ağdərədə, Xocavənddə, Sərsəng su anbarı ərazisində Azərbaycan bayrağının ucaldılması, Zəfər Günündə Xankəndidə hərbi paradın keçirilməsi yalnız yaşadığımız dövrün deyil, xalqımızın son bir neçə əsr daxil olmaqla dövlətçilik tarixinin ən böyük hadisələrindəndir.

*Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən respublikamızın milli təhlükəsizlik strategiyasının nüvəsini torpaqlarımızın işğaldan azad olunması təşkil etmişdir. Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və müdrik siyasi-diplomatiyasının nəticəsi olaraq 2020-2023-cü illər ərzində bu vəzifə böyük uğurla yerinə yetirildi. Beləliklə, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması, Qarabağda erməni separatizminə son qoyulması Azərbaycanın təhlükəsizlik siyasətinin ən böyük uğuru və Heydər Əliyev yolunun təntənəsidir.*

***Ziyafət ƏSGƏROV,***
***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 399 QƏRAR Bakı şəhəri, 3 noyabr 2023-cü il

## "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2013-cü il 27 avqust tarixli 234 nömrəli və "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 24 iyul tarixli 326 nömrəli qərarlarının ləğv edilməsi barədə

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması məqsədilə texniki şərtlərin və enerji təchizatı layihəsinin hazırlanması "ASAN Kommunal" mərkəzləri yaradılmadığı regionlarda bu mərkəzlər yaradılanadək "ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilir;

2.2. Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar "Azərişıq" ASC tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1032; 2014, № 1, maddə 69; 2016, № 2 (II kitab), maddə 361, № 11, maddə 1951; 2017, № 7, maddə 1486; 2018, № 4, maddə 834, № 6, maddə 1366, № 11, maddələr 2455, 2461; 2020, № 6, maddə 813; 2022, № 2, maddə 171, № 4, maddə 373, № 5, maddə 570) ləğv edilsin.

4. "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 iyul tarixli 326 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1659; 2019, № 12, maddə 2067; 2020, № 6, maddə 812) ləğv edilsin.

5. Bu Qərar "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

6. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 400 QƏRAR Bakı şəhəri, 3 noyabr 2023-cü il

## "Tikinti obyektlərinə tələb olunan gücün hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinə tələb olunan gücün hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 407 QƏRAR Bakı şəhəri, 6 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41; 2010, № 4, maddə 359; 2012, № 12, maddə 1385; 2013, № 7, maddə 874, № 8, maddə 1010, № 12, maddə 1641; 2015, № 12, maddə 1598; 2017, № 3, maddə 502; 2020, № 9, maddə 1224; 2023, № 1, maddə 148) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qaydalara 4 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında dövlət məvacibinin, aylıq əlavənin və digər təminatlarla bağlı ödənişlərin həyata keçirildiyi valyutaların növləri"nin cədvəlinə aşağıdakı məzmunda 2.24-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 2.24-1. | Slovakiya Respublikası |

2. Həmin Qaydalara 5 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar"ın cədvəlinə aşağıdakı məzmunda 73-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 73-1. | Slovakiya Respublikası, Bratislava şəhəri | 2,829 |

3. Həmin Qaydalara 6 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyət göstərdikləri müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərin siyahısı"nın cədvəlinə aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 7. | İsrail Dövləti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 411 QƏRAR Bakı şəhəri, 13 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 1999-cu il 7 iyun tarixli 94 nömrəli, "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısının təsdiq edilməsi haqqında" 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli, "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında" 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli, "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli və "Mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin (kadastr mühəndislərinin) uyğunluğunun qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 6 may tarixli 185 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2022-ci il 29 noyabr tarixli 646-VIQD nömrəli, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 29 noyabr tarixli 647-VIQD nömrəli və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 29 noyabr tarixli 648-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373, № 11, maddə 654; 2000, № 2, maddə 116; 2001, № 1, maddə 70, № 5, maddə 350; 2002, № 11, maddə 675; 2006, № 11, maddə 994; 2009, № 10, maddə 846; 2015, № 10, maddə 1223, № 11, maddə 1411; 2016, № 10, maddə 1708; 2017, № 4, maddə 657, № 5, maddə 965; 2018, № 3, maddə 629; 2020, № 10, maddə 1302; 2021, № 11, maddə 1284) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaq-kadastrı işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Torpaq-kadastr sənədlərinin aparılması Qaydaları"na aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən texniki kadastr və yerquruluşu sənədlərinin (kadastr xəritələri və plan-xəritə materialları) tərtibi və bu işlərə dair məlumatların və sənədlərin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.3. həmin Qərarla təsdiq edilmiş "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaqların monitorinqi işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.4. həmin Qərarla təsdiq edilmiş "Yerquruluşu işlərinin aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

"8. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən yerquruluşu işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682; 2002, № 3, maddə 145; 2003, № 6, maddə 342; 2005, № 8, maddə 782; 2006, № 10, maddə 903; 2008, № 2, maddə 106; 2010, № 3, maddə 264, № 12, maddə 1123; 2014, № 10, maddə 1315; 2016, № 9, maddə 1585; 2017, № 12 (II kitab), maddə 2544; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 1, maddə 169, № 3, maddə 555, № 5, maddə 967, № 6, maddə 1172, № 7, maddə 1338; 2020, № 2, maddə 202; 2022, № 8, maddə 1021, № 9, maddə 1085) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın 18-ci hissəsinin birinci abzasından "mənzil-kommunal təsərrüfatının inventarlaşdırma orqanlarına" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869; 2007, № 1, maddə 45, № 3, maddə 312, № 10, maddə 1021; 2008, № 2, maddə 116; 2009, № 6, maddə 491, № 10, maddə 846, № 12, maddə 1061; 2010, № 3, maddə 264, № 4, maddə 359, № 7, maddə 702, № 12, maddə 1122; 2014, № 3, maddə 321, № 10, maddə 1322; 2015, № 4, maddə 474; 2016, № 2 (II kitab), maddə 366, № 3, maddə 610, № 5, maddə 951, № 8, maddə 1431, № 9, maddə 1555, № 11, maddə 1955; 2017, № 1, maddə 131, № 3, maddə 510, № 8, maddə 1617, № 12 (II kitab), maddə 2504; 2018, № 6, maddə 1377, № 7 (II kitab), maddə 1630, № 8, maddə 1809, № 11, maddə 2428, № 12 (II kitab), maddələr 2735, 2738; 2019, № 1, maddə 157, № 9, maddə 1564; 2021, № 1, maddə 85, № 4, maddə 417, № 9, maddələr 1049, 1054; 2022, № 4, maddələr 375, 408; 2023, № 6, maddə 871) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Torpaq sahələrinin döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsi və torpaq sahəsinin planı və ölçüsünün hazırlanması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən xidmətlər, daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi, daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi, sxematik ünvan planlarının tərtibi, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsi, torpaq-kadastr məlumatları və çölölçmə işlərinin nəticələri əsasında torpaq sahəsinə dair mütəxəssis rəyinin verilməsi ilə bağlı göstərilən xidmətlər, dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaq-kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri, texniki kadastr və yerquruluşu sənədlərinin (kadastr xəritələri və plan-xəritə materialları) tərtibi və bu işlərə dair məlumatların və sənədlərin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin uyğunluğunun təsdiq edilməsi ilə bağlı göstərilən xidmətlər.".

4. "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233; 2016, № 8, maddə 1434, № 10, maddə 1718; 2017, № 2, maddə 317, № 5, maddə 993, № 10, maddə 1927, № 12 (II kitab), maddələr 2485, 2540; 2018, № 4, maddə 790, № 8, maddə 1803, № 10, maddə 2167; 2019, № 3, maddələr 555, 566, № 5, maddə 967, № 7, maddə 1325; 2021, № 3, maddə 296, № 12, maddə 1510; 2023, № 6, maddələr 857, 864) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları" üzrə:

4.1.1. aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. Daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi ilə bağlı göstərilən xidmətlərə və hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsinə görə, torpaq sahələrinin döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsi və torpaq sahəsinin planı və ölçüsünün hazırlanması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

4.1.2. 2-1.6-cı bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin göstərdiyi xidmətlərə görə xidmət haqlarının" sözləri "daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi xidmətlərinə görə bu Qaydaların 1.5-ci bəndində nəzərdə tutulan xidmət haqlarının" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"a aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Daşınmaz əmlakın təsviri barədə dövlət reyestrindən məlumatların verilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 945; 2018, № 8, maddə 1817; 2021, № 5, maddə 524) ilə təsdiq edilmiş "Mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin (kadastr mühəndislərinin) uyğunluğunun qiymətləndirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənddən "və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.0.90-cı yarımbəndinə" sözləri çıxarılsın və həmin bəndə "mərzçəkmə işlərini" sözlərindən əvvəl "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - Xidmət) tərəfindən" sözləri əlavə edilsin;

5.2. 1.2-ci bənd ləğv edilsin;

5.3. 4.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmət tərəfindən mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin uyğunluğunun təsdiq edilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

5.4. 7.2-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.5. Qaydalara 1-3 nömrəli əlavələrin adlarında və cədvəllərində ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İlham Əliyev qətiyyəti

## Heç bir güc Azərbaycanın müstəqil siyasətinə təsir göstərə bilməz

*Əvvəli 1-ci səh.*

Yəni məhkəmənin qərarına əsasən, ada sakinlərinin ana dilinin Korsika Assambleyasının debatlarında istifadə edilməsi qeyri-konstitusion hesab edildi. Qərar yerli sakinlərin, həmçinin bir çox beynəlxalq statuslu rəsmi şəxsin etirazına səbəb oldu. Beynəlxalq ictimayyət tərəfindən sərt tənqid edilən Fransa yenə də məkirli siyasətini davam etdirdi.

Humanizmdən, beynəlxalq hüquqdan dəm vuran Fransanın beynəlxalq hüququ necə kobud şəkildə pozduğu açıq-aydın göz önündədir. Bir xalqın, millətin dilinə qoyulan qadağa o milləti məhv etməkdir. Bir millətin məhvinin tərəfdarı olan ölkədən isə riyakarlıqdan, ədalətsizlikdən başqa nəsə gözləmək mümkün deyil.

Bu, bir həqiqətdir ki, Azərbaycan 30 il ərzində dünyada ən çox hüquq pozuntusuna məruz qalan ölkə oldu. Ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistan bir milyon azərbaycanlının bütün hüquqlarını total şəkildə pozmuşdu. Hayastanın Azərbaycana qarşı təcavüzünün elə ən böyük dəstəkçisi, bu işğala göz yummaqla şərait yaradan ATƏT-in keçmiş Minsk qrupunun həmsədr dövlətləri idi. Onun da başında ABŞ və Fransa dururdu.

Dünyaya "demokratiya dərsi" keçən bu ölkələr necə oldu ki, 30 il Azərbaycan torpaqlarında vandalizm aktının törədilməsinə, bir milyon vətəndaşın öz evindən didərgin salınmasına, onların adi yaşamaq haqqının əlindən alınmasına qarşı heç bir sanksiya qəbul etmədilər. Əksinə, ərazisi işğala məruz qalan, vətəndaşları yurd-yuvasından didərgin salınan, köməyə ehtiyacı olan bir ölkəyə qarşı hətta yardımların göstərilməsini qadağan edən sənədi (907-ci düzəliş) qəbul edərək əsl xislətlərini dünyaya nümayiş etdirdilər. Daim erməni lobbisinin girovuna çevrilən ABŞ-nin qəbul etdiyi həmin sənəd bu ölkənin insan hüquq və azadlıqlarına verdiyi "qiymət"in əyani təzahürü idi. Bununla da dünya bir daha ABŞ-nin "demokratiya" totalitarizminə şahidlik etmiş oldu.

### Fransa Cənubi Qafqazda da "Afrika siyasəti" yürütməyə çalışır

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunda yaranan reallıqlar təbii ki, ABŞ və Fransanı, eləcə də Avropa İttifaqındakı antiazərbaycançı şəbəkəni narahat etməyə başlamışdı. Çünki Azərbaycanın zəfəri ilə regionda formalaşan yeni düzən onlara heç cür sərf etmirdi.

Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh sazişi ilə yeni əməkdaşlıq platformalarının (3+3 formatı) yaranması, nəqliyyat-tranzit imkanlarının şaxələnməsi, region dövlətlərinin siyasi-iqtisadi münasibətlərinin getdikcə daha da güclənməsi, əlbəttə ki, həmin dairələri narahat etməyə bilməzdi. Elə bu səbəbdən də 3 ildir sülh müqaviləsinin imzalanmasına hər vəchlə maneçilik törədirlər.

Bu işdə Fransanın oyunları bitmək bilmir. Bu ölkə konkret olaraq regionda sabitliyin bərqərar olunmasında nəinki maraqlı deyil, hətta konkret olaraq Cənubi Qafqazın hər zaman münaqişə ocağı kimi qalması üçün hər vasitəyə əl atır. Prezident Emmanuel Makron sələflərinin "siyasətini" davam etdirərək məğlub Ermənistana "yardım", "kömək" adı ilə bu ölkəni yenidən müharibəyə təhrik edir. Məqsəd bəllidir: Cənubi Qafqazı yenidən müharibə ocağına çevirmək, öz maraqları naminə vəziyyətdən yararlanmaq.




Yəni indi Fransa Cənubi Qafqazda da "Afrika siyasəti" yürütməyə çalışır, çünki bölgədə sülhün bərqərar olması Parisin maraqlarına cavab vermir.

Məğlub Ermənistana gəlincə, bu ölkə müstəqillik qazandığı gündən müstəqil siyasət yürütməyib və xarici himayəçilər üçün "forpost" olmağa üstünlük verib. Bu gün Fransanın Ermənistanda yeni hərbi missiya yaratması Parisin açıq şəkildə Ermənistanı yeni müharibəyə hazırlamaq istəyindən xəbər verir.

### "Xristian klubu"na çevrilən Avropa İttifaqı

Müharibədən sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə vasitəçilik missiyasını üzərinə götürən Avropa İttifaqının da sərgilədiyi mövqe başadüşülən deyil. Bir tərəfdən Aİ Şurasının Prezidenti Şarl Mişelin sülhə yaxınlaşma istiqamətində atdığı addımlar, digər tərəfdən Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borelin aylardır sərgilədiyi qərəzli mövqe təşkilatın ikibaşlı oyun oynadığını deməyə əsas verir.

Cozep Borel hələ bu ilin sentyabrın 21-də Aİ-də Azərbaycan əleyhinə hansısa qətnamənin qəbul edilməsinə can atmışdı. Amma erməni lobbisinin əlaltılarının Avropa İttifaqındakı şousu uğursuz alındı. Belə ki, bu "ali nümayəndə" xeyli müddətdir ki, erməni lobbisinin maliyyə dəstəyi ilə Azərbaycana qarşı sanki "hücuma" keçib. Bunu təsdiqləyən bircə faktı göstərmək yetərlidir. Bütün dünya, hətta Ermənistan belə, Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın ərazisi olduğunu təsdiqlədiyi halda, C.Borel 2022-ci ilin oktyabrında Avropa İttifaqının toplantısında ağ yalan danışaraq iddia edir ki, "Azərbaycan Ermənistanın ərazilərinə hücum edib və hazırda da Azərbaycan Ermənistan ərazilərini işğalda saxlayır".

Sentyabrın 21-də Aİ-dəki müzakirələr, ermənipərəst Borelin hazırladığı bəyanatın təşkilat tərəfindən sənəd kimi qəbul olunma təşəbbüsü da bunu təsdiqləyən reallıq oldu. Amma BMT Təhlükəsizlik Şurasında olduğu kimi, Aİ-də də heç bir sənəd, qətnamə qəbul edilmədi. Avropa İttifaqı dost ölkə Macarıstanın vetosu səbəbindən Azərbaycana qarşı qərəzini nümayiş etdirə bilmədi. C.Borelin növbəti ssenarisinə əsasən, yalnız iftiradan, yalandan ibarət olan bu sənəd Avropa İttifaqına üzv 27 ölkənin birgə bəyanatı olmalı idi. Lakin səsvermədə Macarıstan veto hüququndan faydalanaraq Azərbaycana qarşı yönələn bəyanatın qəbul edilməsinə imkan vermədi.

Əlbəttə ki, bir "diplomatın" uydurmalar əsasında hazırladığı hansısa kağız parçasının təşkilatın ümumi bəyanatı kimi qəbul edilməsinə olunan bu cəhd ilk növbədə Avropa İttifaqını Azərbaycan cəmiyyətində gözdən salmış oldu. Bu cür yanaşmaya görə, haqlı olaraq Avropa İttifaqının artıq "xristian klubu"na, ermənipərəst diplomatlarının isə müasir "səlibçilərə" çevrildiyini söyləyə bilərik.

Noyabrın 13-də isə Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar tamamilə qeyri-adekvat və qəbuledilməzdir. Çünki onun səsləndirdiyi iddalar, ittihamlar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı təhdiddir.

Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda da qeyd edilir ki, Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri bölgədə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır. Əlbəttə ki, bunun məsuliyyəti Aİ-nin üzərinə düşür. Bu məqsədlə, digər sahələrlə yanaşı, hərbi potensialın gücləndirilməsini nəzərdə tutan Avropa Sülh Təşəbbüsündən istifadə edilməsi planları bölgədə gərginliyin artmasına xidmət edir.

Lakin bütün bunların fonunda Hayastan rəhbərliyi anlayır ki, heç bir kənar qüvvə bu ölkənin iqtisadi durumunun yaxşılaşdırılması istiqamətində addım atmır. Bütün cəhdlər Ermənistanı yenidən müharibəyə sürükləyir. Baş nazir Nikol Paşinyan da, erməni xalqı da bilir ki, suverenliyini tam bərpa edən Azərbaycana bundan sonra şər-böhtan atmağın heç bir mənası yoxdur. Yaxşı olar ki, Ermənistan uğradığı hərbi və siyasi məğlubiyyətdən nəticə çıxarsın. Yeni "himayəçi" tapmaq və bu dəfə Fransanın, ABŞ-nin "forpostu" olmaq istəyi Ermənistana baha başa gələ bilər.

Görünən odur ki, Fransa fitnəkar siyasəti ilə hayların ölmüş ümidlərini "dirçəltməyə" can atır. Paris Cənubi Qafqazda sabitliyin yenidən pozulması, regionun əvvəlki kimi müharibə ocağına çevrilməsi üçün dəridən-qabıqdan çıxır. Son 300 ildə Afrika, Asiya və Latın Amerikası ölkələrində yaratdığı müstəmləkələrin hesabına varlanan Fransa artıq Ermənistanı da öz müstəmləkəsi hesab edir.

Ancaq Emmanuel Makron unudur ki, Azərbaycan onun hökmranlıq etdiyi hansısa Afrika ölkəsi deyil. Bu gün kimsə Azərbaycanla hədə, təhdid dili ilə danışa bilməz. Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və təsir göstərilə biləcək dövlət deyil.

İlham Əliyev bunu dəfələrlə bəyan edib ki, Azərbaycan regionda sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində lazımi addımlar atır və bu siyasətini də davam etdirəcək. Azərbaycan yenidən müharibənin baş verməsini istəmir. Əgər bu, baş verərsə, yenə də əzilən tərəf Ermənistan olacaq və bu ölkə onilliklərlə özünə gəlməyəcək.

Bu gün Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Daha 10 ailə bundan sonra Laçında yaşayacaq

İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə davam edir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək dövlətimizin prioritetlərindəndir.

Qarabağ və Şərqi Zəngəzurda yeni müasir infrastruktur qurulur, hava limanları tikilir, "ağıllı" kənd və şəhərlər salınır, müxtəlif təsərrüfat sahələri yaradılır, tarixi, dini, mədəni abidələrin bərpası həyata keçirilir. Regionun biomüxtəlifliyinin, təbiətinin qorunması və səmərəli istifadəsi, kənd təsərrüfatı istehsalının yenidən fəaliyyətə başlaması istiqamətində müvafiq işlər görülür.

Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən Böyük qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən dövlət proqramının icrası işğaldan azad edilmiş torpaqlarımıza yenidən həyatın qaytarılmasında mühüm əhəmiyyət kəsb edir. Proqramın əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni işğaldan azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə davamlı məqsədyönlü tədbirlər həyata keçirilir.

### Yeni həyata qədəm qoyanlar

Sürətlə reallaşan Böyük qayıdış proqramı mərhələli şəkildə davam edir. Dövlət tərəfindən keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilir.

İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin, insanların sayı gündən-günə artır. Köçürülən sakinlər üçün bütün infrastruktur şərait - dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və digər imkanlar yaradılır.

Dünən Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 10 ailə - 40 nəfər köçürülüb. Bununla da şəhərdə 325 ailə, yəni 1245 nəfərin daimi məskunlaşması təmin edilib.

Doğma şəhərə qayıdan laçınlılar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Doğma yurdunu sonuncu dəfə 10 yaşında görən Laçın sakini Səfər Əliyev deyir ki, artıq övladları bu yaşdadırlar: "İndi mən onlarla birgə doğma yurduma qayıdıram. Bu gündən yeni həyata qədəm qoyuruq. Bundan sonra doğma dədə-baba yurdumda yaşayıb, yaradacağam".

Keçmiş məcburi köçkün Rüstəm Rüstəmov illərdir həsrət qaldığı yurduna qayıtdığına hələ də inana bilmədiyini söyləyir: "Necə sevindiyimi təsəvvür edə bilməzsiniz. Nəhayət, uzun illərdən sonra böyüyüb boya-başa çatdığım doğma yerlərə qayıtdım".

### 3228 keçmiş məcburi köçkünün nisgilinə son qoyulub

Böyük qayıdış sürətlə davam edir. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən öz axarına qayıdır. Otuz il öncə torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız öz yurdlarında fərəh və qürurla yeni həyata başlayırlar.

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 325 ailə (1245 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bugünədək 3228 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub.

Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür. Tezliklə Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti ilə bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına qovuşacaqlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



# ATƏT PA-nın prezidenti vaxtilə Ermənistandan köçürülən azərbaycanlılar barədə məlumatlandırılıb

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının (PA) prezidenti Pia Kaumanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, görüşdə S.Əliyeva ombudsmanın mandatı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki fəaliyyəti barədə ətraflı məlumat verib.

Müvəkkil "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərdən bəhs edib, insan hüquqlarının etibarlı müdafiəsi baxımından əhəmiyyətini vurğulayıb.

Ombudsman Milli Preventiv Mexanizm mandatı çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələrin həyata keçirildiyini, dilindən, dinindən, irqindən və digər mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının təmin edildiyini, heç bir ayrı-seçkiliyə yol verilmədiyini qonaqların diqqətinə çatdırıb.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və terror siyasətindən danışan müvəkkil İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edildiyini, hazırda bu ərazilərdə bərpa-quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesinin həyata keçirildiyini bildirib. Birinci Qarabağ müharibəsində 4 minə yaxın azərbaycanlının itkin düşdüyünü, onların taleyi barədə Ermənistan tərəfindən hələ də məlumat verilmədiyini qeyd edib.

İşğaldan azad olunmuş ərazilərimizdə Ermənistanın törətdiyi mina terroru barədə məlumat verən Səbinə Əliyeva dəfələrlə müraciət edilməsinə baxmayaraq, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilmədiyini, basdırılmış minaların insanların həyatına təhlükə yaratdığını, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına maneə törətdiyini qeyd edib. Həmin ərazilərdə aparılan minatəmizləmə və bərpa-quruculuq işləri zamanı azərbaycanlılara məxsus kütləvi məzarlıqların aşkar olunduğunu, təsisat tərəfindən faktaraşdırıcı missiyaların həyata keçirildiyini bildirib, aşkarlanmış kütləvi məzarlıqlar, eləcə də Ermənistanın mina terroru ilə bağlı xüsusi hesabatların hazırlandığını və beynəlxalq təşkilatlara, xarici ombudsman və milli insan hüquqları institutlarına göndərildiyini diqqətə çatdırıb.



Müvəkkil Qarabağda yaşayan erməniəsilli vətəndaşların hüquq və azadlıqlarının təmini və müdafiəsinin daim diqqət mərkəzində olduğunu, müvəkkilə müraciət etmək üsulları ilə bağlı açıqlamalar verildiyini bildirib. O, Ermənistan ərazilərindən məcburi olaraq köçürülmüş azərbaycanlıların hüquqlarının müdafiəsinin vacibliyini vurğulayıb, ATƏT-ə mandatı çərçivəsində bu istiqamətdə müvafiq addımların atılması ilə bağlı çağırış edib.

Görüşdə Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, sədr müavini Hikmət Babaoğlu, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Kamal Cəfərov və Xocalı soyqırımının şahidi çıxış edib, azərbaycanlıların Ermənistan ərazilərindən məcburi olaraq köçürülməsi, vətəndaşlarımıza qarşı törədilmiş cinayət əməllərindən danışıblar. Qonaqlara vaxtilə 300 mindən çox azərbaycanlıların Ermənistandan köçürülməsi, onların fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulması, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələrin dağıdılması barədə geniş məlumat verilib.

Azərbaycan tərəfindən regionda dayanıqlı sülhün təmin edilməsi, gələcəkdə birgəyaşayış üçün münbit şəraitin yaradılması istiqamətində təşəbbüslər göstərdiyi, lakin Ermənistan tərəfindən bölgədə sülh quruculuğu, azərbaycanlıların geriqayıtma hüququnun təmini istiqamətində hər hansı bir addımın atılmadığı qeyd olunub.

Görüşdə, həmçinin qurumlar arasında gələcək əməkdaşlıq əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Riyakar və ədalətsiz mövqe

## Antiazərbaycançı şəbəkə regionda münaqişə ocağı yaratmaq üçün dəridən-qabıqdan çıxır



Azərbaycan torpaqlarının uzun illər ərzində Ermənistanın işğalı altında qaldığı zaman Qərb dövlətləri və ABŞ hansı mövqe sərgiləyirdisə, bu gün də yeni reallıqda eyni siyasətlərini davam etdirirlər - ikili standartlar, riyakarlıq, qərəzli, ədalətsiz mövqe...

Demək olar ki, Cənubi Qafqazla bağlı müxtəlif maraqları olan dövlətlər, siyasi dairələr hər vəchlə regionda münaqişə ocağının qalması üçün səy göstərirlər və hazırda da bu istiqamətdə cəhdlərini davam etdirirlər. Onlar bu yolla Ermənistana dəstəklərini ifadə etsələr də, əslində, reallığın bu olmadığı bəllidir. Ermənistana "dəstək" isə müxtəlif şəkillərdə özünü göstərir. Biri silah-sursat göndərir, digəri Aİ müşahidə missiyasının genişləndirilməsi ilə bağlı anons verir, işğalçı ölkədə Sülh fondunun işə başlayacağı xəbərləri yayılır. Təbii ki, bütün bunlar müstəqil siyasət yürüdən Azərbaycanı öz aləmlərində qorxutmaq, haqq, ədalət yolundan döndərmək üçün "ədalət carçıları"nın davamlı səylərinin bir hissəsidir.

Azərbaycanın öz gücü hesabına BMT-nin uzun illər kağız üzərində qalan 4 qətnaməsini yerinə yetirməsini, ərazi bütövlüyünü, suverenliyini tam bərpa etməsini Qərb qəbul edə bilməsə də, yaranan reallığı dəyişdirmək mümkün deyil.

Bu gün Azərbaycan sözü, əməli bir olan dövlətdir və Cənubi Qafqazda yeni reallıq formalaşdırıb. Həm də bütün bunları beynəlxalq hüquq normalarından kənara çıxmadan, qaydalara uyğun şəkildə edib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, dünyada ikili standartlar mövcuddur və bu siyasət bir qayda olaraq haqqını müdafiə edən, beynəlxalq hüququn işləməsini gözləyən ölkələrə qarşı yönəldilir.

Deputat qeyd edib ki, bu zaman zərərçəkən ölkə ilə zərərverən ölkə fərqləndirilmir: "Ermənistanın Azərbaycan torpaqlarını otuz ilə yaxın işğalda saxlaması, xalqımıza qarşı törədilmiş vəhşiliklər, soyqırımlar, qətliamlar, işğal etdikləri torpaqlarımızda bütün mədəni sərvətləri yerlə yeksan etmələri dünyanın gözü qarşısında baş verib. Çox təəssüf ki, böyük dövlətlər bu məsələyə göz yumublar. İndi isə məğlub olan, layiqli cəzasını alan Ermənistanın hansısa mifik hüquqlarını qorumaq üçün bəzi ölkələr və qurumlar bu və ya digər formada canfəşanlıq edirlər. Eyni zamanda Ermənistana maddi yardımlar göstərirlər".

Azərbaycan ərazisindən könüllü şəkildə Ermənistana gedən erməni əhali üçün xüsusi imtiyazlar tələb olunduğunu xatırladan A.Mirzəzadə deyib ki, bu cür yanaşma yolverilməzdir və dünyada ədalətin bərpa edilməsinə heç də kömək olmur. "Əgər kimlərsə bu üsullarla Azərbaycanı öz hüquqlarından əl çəkməyə məcbur edəcəklərini hesab edirlərsə, yanlış düşünürlər. Bu, heç vaxt baş verməyəcək. Azərbaycan öz suveren hüquqlarını həmişə müdafiə edir və bundan sonra da edəcək. Bunun üçün dövlətimizin gücü, qətiyyəti, ən əsası xalq-hakimiyyət birliyi var", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# ATƏT PA-nın bəyanatında Qarabağın Azərbaycan ərazisi olduğu vurğulanıb

ATƏT Parlament Assambleyasının (PA) prezidenti Pia Kauma və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen Azərbaycanın Ermənistanla sülh sazişinin yekunlaşdırılması istiqamətindəki səylərini davam etdirməyə sadiqliyini alqışlayıblar.

AZƏRTAC xəbər verir ki, bu barədə ATƏT PA-nın bəyanatında bildirilib.

Pia Kauma və Kari Henriksenin Azərbaycana səfərləri ilə bağlı təşkilatın yaydığı bəyanatda qeyd olunub ki, səfər çərçivəsində Azərbaycanın siyasi rəhbərliyi ilə Ermənistanla hərtərəfli tənzimləməyə nail olunması istiqamətində müzakirə aparılıb. Bəyanatda Qarabağın Azərbaycanın regionu olduğu vurğulanıb: "Azərbaycana bu gün başa çatan səfəri çərçivəsində ATƏT PA prezidenti Pia Kauma (Finlandiya) və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen (Norveç) ölkənin siyasi liderliyi ilə sentyabrda Azərbaycanın öz Qarabağ regionu üzərində nəzarətini bərpa etməsindən sonra Ermənistanla tam nizamlamaya nail olunmasına ehtiyac müzakirə edilib. Sülh sazişi və əlaqələrin normallaşmasının irəliyə aparılması üçün konstruktiv iştirak vacibdir".

Bildirilir ki, indi Azərbaycan və Ermənistan arasında tam nizamlanmaya nail olmaq üçün sürət qazanmağın vaxtıdır. Rəsmi Bakının indi davamlı sülhün bərqərar olması naminə əsl liderlik nümayiş etdirmək imkanı var.

Bəyanatda vurğulanıb ki, Azərbaycanın ATƏT PA-da güclü iştirakı regionda çoxtərəfli diplomatiya və dialoq üçün müsbət işarədir.

ATƏT rəsmiləri Azərbaycan tərəfinin etnik ermənilərin geri qaytarılmasına kömək göstərilməsi ilə bağlı təşəbbüsünü alqışlayıblar. Nümayəndə heyəti həmçinin ərazilərin minalardan təhlükəsizliyini təmin etmək, yenidənqurma və reinteqrasiya sahəsində irəliləmək üçün əhəmiyyətli səyləri yüksək qiymətləndirib, beynəlxalq ictimaiyyəti Azərbaycanda təhlükəsizlik və humanitar vəziyyətin inkişafında iştirakını davam etdirməyə çağırıb.

# Artak Beqlaryanın uğursuz Cenevrə sərgüzəştləri

Azərbaycan ərazisində mövcudluğuna son qoyulmuş keçmiş separatçı rejimin nümayəndələri indi də Ermənistanın QHT-ləri tərkibində Avropada öz qeyri-qanuni təcrübələrinin təbliğatına cəhd göstərməyə çalışmaqdadırlar.

AZƏRTAC xəbər verir ki, erməni mənbələrinin məlumatına əsasən, bu dəfə özünü keçmiş "dövlət naziri" kimi təqdim edən Artak Beqlaryan "Ermənistanın Şəfqət Cəmiyyəti" QHT-si tərkibində BMT-nin Cenevrə Ofisində Azərbaycanla bağlı Universal Dövri İcmal üzrə işçi qrupunun iclasında iştirak etsə də, iddialarının əksinə ona çıxış üçün heç bir söz verilməyib.

Bu uğursuzluqdan sonra Artak Beqlaryanın iştirakı ilə Cenevrədə "Artsaxın bərpasına aparan yol: Azərbaycanın məsuliyyətə cəlb olunması" adlı tədbir təşkil ediləcəyi barədə xəbərlər yayılıb.

Lakin daha sonra yayılan şəkildən də məlum olub ki, 6-7 şəxsdən və bir ölkədən (Ermənistandan) başqa onun tədbirinə heç kim qatılmayıb.

Bununla da bölgədəki reallıqları təhrif etməklə beynəlxalq ictimaiyyəti aldatmağa hesablanan, Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyasının tərkib hissəsi olan "blokada" və "soyqırımı" iddialarını yaymaq məqsədi daşıyan növbəti "tədbir" fiaskoya uğrayıb.

# Qərbin sülhə zərbəsi Ermənistanı məhvə sürükləyir

"Regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir. Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz".

Prezident İlham Əliyevin noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul etdiyi zaman səsləndirdiyi kimi, Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb və bölgənin gələcəyi də bu reallıqlar əsasında qurulmalıdır.

Xüsusilə də Ermənistanı forpostuna çevirərək Cənubi Qafqaza soxulmaq istəyən, başda neokolonist Fransa olmaqla, bəzi Qərb ölkələri bu nüansa diqqət etməli, addımlarını buna görə atmalıdırlar.

### Azərbaycanın zəfəri Qərbin məkrli siyasətini darmadağın edib

Ötən üç il müddətində Azərbaycanın 44 günlük Vətən müharibəsindəki zəfəri, eləcə də 2023-cü ildə suverenliyini təmin etməsinin fonunda Qərb siyasi dairələrində cərəyan edən hadisələr göstərir ki, ikilistandartlardan çıxış edən ölkələr heç cür bölgədəki yeni reallıqlarla barışmaq istəmirlər. Çünki Azərbaycan öz zəfəri ilə onların məkrli siyasətlərini darmadağın edib.

Buna görə də erməni lobbisinin meydan suladığı ABŞ, Kanada, eləcə də başda Fransa olmaqla Qərbi Avropa ölkələri təşkilatlanaraq bütün platformalarda Azərbaycana qarşı hücuma keçiblər.

Neçə müddətdir ölkəmizə siyasi təzyiqlər edən, informasiya kampaniyaları aparan bəzi məkrli Qərb ölkələri indi də Ermənistanı birbaşa silahlandırmaqla Azərbaycana, sözün əsl mənasında, savaş elan ediblər.

Neokolonist Fransa tərəfindən Ermənistana çoxlu sayda "Bastion" çoxməqsədli zirehli avtomobillərinin və onlara məxsus avadanlıqların göndərilməsi, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin Aİ-nin Ermənistanın Azərbaycanla sərhədində missiyasını gücləndirəcəyi ilə bağlı dediyi sözlər də bunu təsdiq edir.

### Tülkü xislətli "sülh göyərçinləri"

1990-cı illərin əvvəllərində ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal olunan, bir milyondan çox vətəndaşı yurdundan didərgin salınan, soyqırımlarla, qətliamlarla üzləşən, 4 minə yaxın insanı əsir və girov düşən, torpaqları mina tarlasına çevrilən Azərbaycan düz 30 il müddətində yenidən qan tökülməməsi, müharibə olmaması üçün cidd-cəhdlə danışıqlar apardı, münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar oldu.

Amma elə bu 30 ildə indi "sülh göyərçini" roluna girmiş Qərb ölkələrinin dırnaqarası barış missiyalarının sayəsində iki ölkə arasında münaqişənin həlli istiqamətində heç bir irəliləyiş əldə olunmadı, əksinə, getdikcə vəziyyət çıxılmaz hal aldı.

Münaqişənin həllinə sülh yolu ilə nail olunması üçün missiyalandırılan keçmiş ATƏT-in Minsk qrupu danışıqların Ermənistanın xeyrinə sonsuzadək sürməsi üçün əlindən gələn bütün çirkin oyunbazlıqları etdi. Həmsədrlər bu müddətdə, sadəcə, erməni lobbisinin pullarını xımır-xımır yeməklə məşğul oldular.

Təbii ki, bu vəziyyət haqlı tərəf olan Azərbaycanı qane edə bilməzdi və etmədi də.

2019-cu ildə Valdayda Prezident İlham Əliyev bütün dünyaya "Qarabağ Azərbaycandır və nida" bəyanını etməklə, həm də açıq şəkildə onun mesajını çatdırdı ki, biz torpaqlarımızı nəyin bahasına olursa olsun, işğaldan azad edəcəyik, istər danışıqlar, istərsə də hərb yolu ilə.

### Hər hansı qeyri-dost hərəkət adekvat şəkildə cavablandırılacaq

Bəzən sülhə nail olmaq üçün müharibə qaçılmaz olur və 44 günlük müharibə də məhz bu missiyalı savaş idi. Buna görədir ki, Azərbaycan zəfərdən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif etdi.

Prezident İlham Əliyev ATƏT PA-nın prezidenti ilə görüşündə də vurğuladı ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Dövlət başçısı onu da qeyd etdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar hər hansı bir baxış ortaya qoymur.

Cənubi Qafqaz regionunda son 30-35 il ərzində baş verən reallıqlar qısaca olaraq bunlardan ibarətdir, lakin qərəzli ölkələr bu gerçəkləri görməzdən gəlirlər. Cənubi Qafqaza soxulmağa bəhanə gəzən Qərb ölkələri təcavüzkar Ermənistanı qurban rolunda görərək bölgəyə özlərini pərçimləməyə çalışırlar. Gah Azərbaycanın Ermənistanla müharibə edəcəyi yalanını tirajlayırlar, gah "etnik təmizləmə"dən danışırlar, gah da İrəvana silah, hərbi missiya göndərirlər. Bir sözlə, Ermənistanı özünün məhvi olacaq müharibəyə sürükləyirlər.

Vasitəçi kimi onilliklər boyu keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində heç bir iş görməyən müstəmləkəçi Fransanın indi forpostu Ermənistanı silahlandıraraq müharibəyə qızışdırması Cənubi Qafqazı savaş meydanına çevirmək istəyini açıq ortaya qoyur.

Azərbaycan Xarici İşlər Nazirliyi də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelə cavabında bildirib ki, Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri, bölgəmizdə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır və bunun məsuliyyəti eyni zamanda Aİ-nin üzərinə düşür: "Bir daha xatırladırıq ki, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaqdır".

Qərbin bütün bu məkrli planları isə Ermənistanı məhvə sürükləyəcək.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




# Fransada antisemitizm getdikcə artır

## Ölkədə terrorizmə bəraət qazandırılması ilə bağlı 330 təhqiqat işi başlayıb

Fransa Ədliyyə Nazirliyinin məlumatına əsasən, Fransada antisemitizm və terrorizmə bəraət qazandırılması ilə bağlı ümumilikdə 330 təhqiqat işi başlayıb.

Daha əvvəl ölkənin daxili işlər naziri Cerald Darmanen bildirib ki, hakimiyyət orqanları yəhudi əhalisini təhqir etmək məqsədi daşıyan 1247 cinayət faktını qeydə alıb. Bununla əlaqədar 539 nəfər saxlanılıb. Onlardan 154-ü xarici ölkə vətəndaşıdır. 33 nəfər müvəqqəti saxlama təcridxanalarındadır. Nazir onların yaşayış icazələrinin geri alınmasını və ölkədən deportasiya olunmalarını tələb edib.

Bu günlərdə Fransada "antisemitizmə qarşı yürüş" keçirilib. Daxili İşlər Nazirliyinin məlumatına görə, nümayişdə 182 mindən çox insan iştirak edib. Onlardan 105 mini Parisdə yürüşə çıxıb.

Associated Press agentliyi yazır ki, Parisdə antisemitizmin artmasına qarşı keçirilən yürüşdə 100 mindən çox insan iştirak edib.

"Antisemitizmə qarşı uzun yürüş" Milli Assambleya və Senatın prezidentləri Yael Braun-Pivet və Jerar Larşerin çağırışı ilə təşkil edilib. Baş nazir Elizabet Born, ifrat sağçı Milli Birlik partiyasının lideri Marin Le Pen və keçmiş prezidentlər Nikola Sarkozi və Fransua Ollandın da olduğu etiraz nümayişini 3 mindən çox polis müşayiət edib.

AP-nin qeyd etdiyi kimi, prezident Emmanuel Makron yürüşdə iştirak etməyib, lakin etirazçılara dəstəyini ifadə edib və " antisemitizmin dözülməz dirçəlişinə qarşı ayağa qalxmağa" çağırıb.

"La Tribune" qəzeti yazır ki, bu, Fransada antisemitizm əleyhinə keçirilən doqquzuncu nümayişdir və 1980-ci illərin əvvəllərindən bəri ən böyük aksiyalardan biridir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Azərbaycanla təhdid dili ilə danışmaq mümkün deyil



*"Qərb siyasi mərkəzlərinin davamlı olaraq sülh və demokratiyadan danışmalarına baxmayaraq, hər zaman buna əngəl törədən addımlar atmaları dünya ictimaiyyətinə məlumdur. Xüsusilə son vaxtlar Qərb ölkələri öz absurd və riyakar davranışları ilə bunu tez-tez sübut edirlər. Misal üçün, Fransa hökumətinin Parisdə Sülh forumu təşkil etdiyi bir vaxtda Ermənistana silah göndərməsi bunun bariz nümunəsidir. Bu, Fransanın timsalında, əslində, Qərb ölkələrinin regionda vəziyyətin gərginləşməsinə cəhd göstərdiklərinin əyani sübutudur".*

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, ABŞ, Qərb, xüsusilə də Almaniya və Fransa Azərbaycanla Ermənistan arasında sülhün dəstəklənməsində deyil, münaqişənin davam etməsində maraqlıdırlar: "Noyabrın 13-də Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə ittihamlar səsləndirməsi, Parisin Ermənistanı silahla təmin etməsi, habelə bir sıra ölkələr tərəfindən ölkəmiz əleyhinə əsassız bəyanatların verilməsi ondan xəbər verir ki, regiona müxtəlif müdaxilələr var. Bəzi ölkələrdə və beynəlxalq qurumlarda Azərbaycana qarşı qərəzli və saxta qətnamələrin qəbul edilməsi isə ümumiyyətlə yolverilməzdir".

Deputat deyib ki, özünü demokratiyanın beşiyi hesab edən, davamlı olaraq insan haqlarından danışan, lakin əməldə bunu sübut etməyən ölkələr unutmasınlar ki, Azərbaycanın gücü və qüdrəti yenilməzdir. Azərbaycan istənilən təzyiq və təhdidlərə cavab vermək iqtidarındadır. Odur ki, Qərb ölkələrinin ikili standartlar siyasəti heç bir nəticə verməyəcək.

"Onu da qeyd etmək lazımdır ki, Qərb siyasi mərkəzlərində dini və etnik məsələlərdə diskriminasiya, türkofobiya, islamofobiya, rasizm və millətçilik geniş vüsət alıb. Həmçinin onlar inkişaf edən ölkələrdə cəmiyyətləri daxildən dağıtmaq üçün dəyərləri məhv edir, öz maraqlarını təmin etməkdən ötrü müxtəlif qarayaxma və böhtan kampaniyaları aparırlar. Onların ambisiyalarına xidmət edən konfliktlərə göz yumur və ya istəmədikləri halda vəziyyətin daha da gərginləşməsi üçün cəhdlər edirlər", - deyə deputat qeyd edib.

Vüqar Bayramov vurğulayıb ki, dünyada nüfuzu durmadan artan, Cənubi Qafqazda söz sahibinə çevrilən Azərbaycanın maraqlarının əleyhinə çıxış etməklə, ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməklə müsbət nəticə əldə edəcəyini düşünən dövlətlər tamamilə yanılırlar. Azərbaycan Xarici İşlər Nazirliyinin Cozep Borelin ölkəmizin əleyhinə əsassız ittihamları ilə bağlı şərhində bildirildiyi kimi, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət adekvat şəkildə cavablandırılacaq.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

# "Cozep Borel tərəfindən Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar qəbulolunmazdır"

Noyabrın 13-də Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar tamamilə qeyri-adekvat və qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Cozep Borelin Azərbaycan əleyhinə əsassız ittihamları ilə bağlı şərhində bildirilib.

Qeyd edilib ki, Avropa İttifaqının 30 ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganə yanaşması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamaqdan çəkinməsi fonunda, Ermənistana ifadə olunan dəstək və Azərbaycana qarşı təhdid dolu ifadələr bu qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsidir. Aİ Xarici Fəaliyyət Xidmətinin bu və digər bölgələrdə sərgilədiyi riyakar yanaşmalardan da göründüyü kimi, bu qurum yanlış addımların qurbanına çevrilib.

Bununla yanaşı, Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir addım atmayan Aİ-nin nümayəndəsinin səsləndirdiyi ittihamlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdiddir.

"Bir daha xatırladırıq ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də cari ilin sentyabrında 24 saatlıq antiterror tədbirləri ölkəmizin suveren ərazilərində həyata keçirilib. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib. Aİ üzv ölkələri aqressiv separatizm meyillərindən əziyyət çəkdiyi halda, Azərbaycanın öz suveren ərazilərində mövcud təhdidlərə qarşı haqlı mübarizəsinə münasibətdə Aİ-nin xarici siyasət qurumunun ölkəmizin ərazisində separatizmi qızışdırması cəhdləri ciddi narahatlıq mənbəyidir. Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri, bölgəmizdə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır və bunun məsuliyyəti, eyni zamanda Aİ-nin üzərinə düşür. Bu məqsədlə, digər sahələrlə yanaşı, hərbi potensialın gücləndirilməsini nəzərdə tutan Avropa Sülh Təşəbbüsündən istifadə edilməsi planları bölgədə gərginliyin artmasına xidmət edir. Bir daha xatırladırıq ki, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaqdır", - deyə Xarici İşlər Nazirliyinin şərhində bildirilib.

# Qərbin regionda vəziyyəti gərginləşdirmək cəhdləri mənasızdır

Qərbin bəzi siyasi dairələrinin, xüsusilə də ABŞ və Fransanın ölkəmizə qarşı sərgilədikləri riyakar və ikiüzlü davranışları son dövrlərdə intensiv xarakter alıb. Onların məsələlərə qərəzli və qeyri-obyektiv yanaşmaları özünü bir çox istiqamətlərdə açıq şəkildə göstərir.

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, indiki vəziyyətdə Qərbin Ermənistana müdaxiləsi əslində bizim işimizə yarıyır: "Nəzərə almaq lazımdır ki, bu, Qərbin Ermənistan vasitəsilə Rusiya və İranla münasibətini gərginləşdirəcək. Azərbaycana gəlincə isə, Qərbin bizimlə hansısa xüsusi problemi o vaxt olubdu ki, Qarabağda erməni faktoru əhəmiyyət daşıyırdı. İndi isə artıq belə bir faktor yoxdur. Yəni Qərb ölkələrini Azərbaycana müdaxilə etməyə həvəsləndirən vasitələr, demək olar ki, ortadan qalxıb. Bu baxımdan da Qərbin regionda vəziyyəti gərginləşdirmək cəhdləri, fikrimcə, bizi çox da narahat etməməlidir. Əksinə, bu vəziyyət bizim İranla müəyyən qədər anlaşaraq bəlli bir yol amilini həll etməyimizə kömək edə bilər".

Deputatın sözlərinə görə, Qərb siyasi dairələri Ermənistanda Rusiya amili kifayət qədər güclü olduğuna görə bu ölkəyə saxta dəstək verirlər. Əslində isə bu dəstək Ermənistanın hazırkı hakimiyyəti üçün də narahatlıq yarada bilər. Onu da qeyd etmək lazımdır ki, ABŞ və Avropa İttifaqı bu məsələyə Ermənistanı qorumaqdan daha çox, Paşinyanı qorumaq baxımından yanaşırlar. Onun hakimiyyətinin qorunması üçün bu cür sistemsiz və məntiqsiz addımlar atırlar. Bütün hallarda biz də bu addımlardan yararlanmalıyıq.

Fazil Mustafa deyib ki, ABŞ və Qərb ölkələrinin, xüsusilə də Fransanın və Almaniyanın ölkəmizə



qarşı münasibətdə qeyri-səmimi və riyakar davranışlar sərgiləməsi bizim müəyyən platformalarda məsələləri daha sərt formada həll etməyimizə imkan verir. Yəni ölkəmizə qarşı əsassız təklif və tələblər qoyulduqda biz onların ədalətsiz olduqlarını sübuta yetirə bilirik. Haqsızlıqla üz-üzə qalmağımıza baxmayaraq, bu vəziyyətdən də faydalanaraq çıxmağı bacaracağıq.

Müsahibimiz bildirib ki, Qərb artıq uzun illərdir ki, ikili standartlardan əl çəkmir. Öz ambisiyaları naminə müxtəlif ölkələrdə, eləcə də Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsi üçün əlindən gələni əsirgəmir. Müxtəlif vasitələrlə cəmiyyətləri daxildən dağıtmaq üçün cəhdlər göstərir. Lakin Azərbaycana qarşı nə qədər absurd bəyanatlar səsləndirmələrindən asılı olmayaraq, onların heç biri nəticə verməyəcək.

Deputat həmçinin vurğulayıb ki, noyabrın 13-də Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar tamamilə qəbuledilməzdir. Belə absurd bəyanatlar ölkəmiz üçün heç bir əhəmiyyət kəsb etmir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# ABŞ və Qərbin ənənəvi qərəzi

## Bu cür siyasət dövlətlərarası münasibətlərə xələl gətirir

"Hər zaman Amerika Birləşmiş Ştatları, eləcə də Avropanın bir sıra dairələri tərəfindən Azərbaycana münasibətdə qərəzli mövqeyi müşahidə edirik. Bunun kökündə duran başlıca məqam ondan ibarətdir ki, Azərbaycan tam müstəqil, güclü bir ölkədir, öz maraqları çərçivəsində siyasət həyata keçirir. Qərbin müstəqil, milli maraqlar çərçivəsində siyasət yürüdən dövlətlərə qərəzli münasibət bəsləməsi kimi təcrübəsinə illərdir ki, şahidlik edirik".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, bu, bütövlükdə başında ABŞ-nin dayandığı Qərbin yanaşmasıdır və məhz bu cür yanaşma dünyada cəzasızlıq şəraitini şərtləndirir, ayrı-ayrı regionlarda münaqişə potensialını yüksəldir. "1992-ci ildə Ermənistan sistemli şəkildə Azərbaycan torpaqlarını işğal edən zaman ABŞ Konqresi işğalçı Ermənistana münasibətdə deyil, işğala məruz qalan Azərbaycana qarşı 907-ci əlavəni qəbul edib. Bu da Ermənistanı işğalçılıq siyasətini davam etdirməyə həvəsləndirdi. Ermənistan özünü tam cəzasızlıq şəraitində hiss edərək, Azərbaycan torpaqlarını davamlı işğal altında saxlamaq niyyətini və sonrakı mərhələdə anneksiya etmək istəyini heç gizlətmirdi. Hətta Azərbaycanın yeni ərazilərini işğal etmək niyyətində olduğunu da nümayiş etdirirdi", - deyə o əlavə edib.

E.Mirbəşiroğlu qeyd edib ki, bütün bunlar göz önündə olsa da, Amerika Birləşmiş Ştatları baş verənləri susqunluqla müşahidə edib. Bir coğrafiyada bir dövlətin ərazi bütövlüyünü dəstəkləyən ABŞ Cənubi Qafqazda Azərbaycanla Ermənistan arasındakı keçmiş münaqişə vəziyyəti zamanı ən yaxşı halda susqunluq nümayiş etdirirdi. Bir çox hallarda isə tutduğu mövqeyi ilə işğalçı, təcavüzkar Ermənistanı dəstəklədiyini təsdiqləyirdi.

Deputat vurğulayıb ki, ABŞ-nin digər istiqamətlər üzrə də ikili standartlardan çıxış etdiyi daim müşahidə olunub. Belə siyasət həm dövlətlərarası münasibətlərə xələl gətirir, həm də qlobal təhlükəsizlik üçün təhdidləri daha da artırır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransaya güvənən Ermənistan

## Xarici havadarları bu ölkəni fəlakətə aparır

Azərbaycanın iyirmi faiz torpağını Ermənistanın işğal altında saxladığı otuz il ərzində susan, ondan əvvəl də təcavüzkar ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qırğınları, soyqırımları, onları evlərindən, yurdlarından didərgin salmalarını, mallarını-mülklərini qarət etmələrini "görməyən" dünyanın ermənipərəst ölkələri ədalət yerini tutduqdan, haqq qalib gəldikdən sonra narahat olmağa başlayıblar.




Açıq-aydın görünür ki, Qarabağ münaqişəsinin başa çatması, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi onların yuxularını ərşə çəkib. Qərb Azərbaycanla Ermənistan arasında sülhün bağlanmasına imkan verməmək üçün cani-dildən "çalışır", hər yalana, böhtana, riyakarlığa əl atır.

Uzun illər işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini tərk etmələri ilə bağlı BMT TŞ-nin 4 qətnaməsinin yerinə yetirilməməsinə göz yuman, adları vasitəçi olsa da, iki ölkə arasında münaqişənin həll olunmasına səy göstərməyən ABŞ və Fransa bugünkü əməlləri ilə dünənlərini də ifşa edirlər. Təsdiq edirlər ki, heç zaman ədalətli vasitəçilik niyyətində olmayıblar.

ABŞ və Qərbi Avropa ölkələri, xüsusilə Fransa və Almaniya Azərbaycana qarşı böhtan xarakterli bəyanatlar yaymaqla, qətnamələr qəbul etməklə və sanksiyalarla hədələməklə Cənubi Qafqazda sülhün, sabitliyin bərqərar olacağından duyduqları narahalığı aydın şəkildə göstərirlər. Ermənistanı silahlandırmaqla sülh prosesinin əleyhinə olduqlarını nümayiş etdirirlər. Qərbin ermənipərəst siyasi dairələrində bu məsələdə daha fəalı, ən çox canfəşanlıq edəni isə yenə Fransadır. Məlum olduğu kimi, rəsmi Paris Ermənistana hərbi texnika, silah-sursat göndərməkdə davam edir. Bu günlərdə Fransanın "Acmat" şirkətinin istehsalı olan çoxfunksiyalı "Bastion" adlanan zirehli avtomobilləri Ermənistana göndərdiyi barədə faktlar da KİV-də yayıldı. Fransanın Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda yenidən vəziyyəti gərginləşdirmək, müharibəni alovlandırmaq məqsədi güddüyü heç kimə sirr deyil.

Otuz ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganəlik göstərən, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, bir milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamaqdan çəkinən Avropa İttifaqı (Aİ) da riyakarlığını işğalçı ölkəyə dəstəyi ilə, Azərbaycana qarşı təhdid dolu ifadələrlə sərgiləyir. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirdiyi, regiondakı reallıqları qəsdən təhrif edən ittihamları bu qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsidir. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) yaydığı açıqlamada qeyd olunur ki, Aİ Xarici Fəaliyyət Xidmətinin bu və digər bölgələrdə sərgilədiyi riyakar yanaşmalardan da göründüyü kimi, qurum yanlış addımların qurbanına çevrilib. Eyni zamanda Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir addım atmayan Aİ-nin nümayəndəsinin ittihamları Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdiddir. Azərbaycan XİN-in açıqlamasında istər 44 günlük Vətən müharibəsinin, istərsə də cari ilin sentyabr ayında 24 saatlıq lokal xarakterli antiterror tədbirlərinin ölkəmizin suveren ərazilərində həyata keçirildiyi bir daha xatırladılıb. Bildirilib ki, Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib. Diqqətə çatdırılıb ki, Azərbaycanın öz suveren ərazilərində mövcud təhdidlərə qarşı haqlı mübarizəsinə münasibətdə Aİ-nin xarici siyasət qurumunun ölkəmizin ərazisində separatizmi qızışdırması cəhdləri ciddi narahatlıq mənbəyidir: "Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri, bölgəmizdə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır və bunun məsuliyyəti, eyni zamanda Aİ-nin üzərinə düşür. Bu məqsədlə, digər sahələrlə yanaşı, hərbi potensialın gücləndirilməsini nəzərdə tutan Avropa Sülh Təşəbbüsündən istifadə edilməsi planları bölgədə gərginliyin artmasına xidmət edir". XİN bir daha xatırladıb ki, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaqdır.

Azərbaycan beynəlxalq hüquqla ona aid olan torpaqları geri qaytarıb, suveren əraziləri üzərində nəzarətini bərpa edib. Bu, beynəlxalq ictimaiyyətin çox yaxşı bildiyi və təsdiqlədiyi faktdır. Dövlətimiz sülhün tərəfdarı olduğunu hər zaman əməli işləri, fəaliyyəti ilə nümayiş etdirir. Azərbaycan Ermənistanla dialoqun, sülhün tərəfdarıdır. ABŞ, Fransa başda olmaqla digər ermənipərəst Avropa ölkələrinin, eləcə də öz adına, nüfuzuna hörmət etməyən Avropa İttifaqı kimi beynəlxalq təşkilatların bu cür havadarlıqları Ermənistan rəhbərlərini məkrli niyyətlərə düşməyə həvəsləndirir, əsl xislətlərini ortaya çıxarır. Nəticədə, bir müddət əvvəl Azərbaycanla ilin sonuna qədər sülh müqaviləsinin imzalanacağını, regiondakı kommunikasiyaların bərpa ediləcəyini bəyan edən Ermənistanın baş naziri Nikol Paşinyan bir-birinə zidd bəyanatlar verir. Bununla ölkəsini fəlakətə aparır. Rəsmi İrəvan unudur ki, xarici havadarlarına güvənməklə onların riyakar oyunları baş tutmayacaq, sonunda yenə də uduzan məğlub tərəf olacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Hayastan əhalisi 30 ildir 3 milyona çatmır

## Ölkəni tərk edənlərin sayı durmadan artır

Rusiya ilə yaranan siyasi problemlər fonunda sosial-iqtisadi çətinliklər məngənəsində boğulan Hayastanda demoqrafiya problemi də artaraq daha gərgin mərhələyə qədəm qoymaqdadır.

Görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, imkan yarandıqca xaricə köçənlərin sayı artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Hayastanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Hayastanı tərk edənlərin sayı isə durmadan artır. Etnoqraf alim, tarix elmləri namizədi Artaşes Boyacanyan deyib ki, ölkədə 5,5 milyon əhali olmalı idi, ancaq siyahıyaalmaya, hazırkı qeydiyyata əsasən, 2 milyon 900 min nəfər qalıb. O bildirib ki, demoqrafik baxımdan Hayastan qocalmış ölkədir: "Yaşı 65-dən yuxarı olanlar respublika əhalisinin 14,5 faizini, bəzi kənd yaşayış məntəqələrində isə 22 faizə qədərini təşkil edir. Müxtəlif millətlərdən olan başqa ölkələrin vətəndaşlarının Hayastana köçürülməsi də problemlər yaradır. Bu da demoqrafik mənzərənin dəyişməsinə gətirib çıxarır. Şorayel bölgəsi də daxil olmaqla ölkənin müxtəlif vilayətlərinə İran, Çin və Hindistandan köçənlərin sayı ildən-ilə artır".

Qeyd edək ki, Hayastanın əhalisinin sayı 30 ildir 3 milyona çatmır. Erməni mətbuatının verdiyi məlumata görə, aparılan araşdırmalar göstərir ki, miqrasiya templəri artan xətt üzrə davam etsə, 2025-ci ilədək respublikada əhalinin sayı 1,5 milyon nəfər azalacaq. 2050-ci ildə isə ölkəni tərk edənlərin sayı 2 milyon nəfərə çatacaq. Qeyd olunur ki, Ermənistan əhalisinin



sürətlə qocaldığı 100 ölkə arasında yer alır. Hazırda bu ölkədə əmək qabiliyyətli əhalinin 40-50 faizi xaricə köçmək istəyir.

Bu sahədə araşdırma aparan yerli və beynəlxalq təşkilatlar da hesab edirlər ki, proseslərin real gedişi sözügedən ölkədə insan resursunun sürətlə tükəndiyini meydana çıxarır. Əhalinin artım səviyyəsi aşağı olduğundan yaşlıların xüsusi çəkisinin davamlı surətdə artması da Hayastanı böyük sürətlə demoqrafik böhrana yuvarlayır. Məsələyə diqqət yetirən "4rd.am" saytı yazır ki, hər il Hayastanı daha yaxşı həyat axtarışında olan təqribən 70 mindən çox erməni tərk edir: "Hayastanın kənd rayonlarında yoxsulluq və işsizlik insanları doğma yerləri tərk etməyə məcbur edir. Burada əksər hallarda kişilər evlərini tərk edirlər, bütöv kəndlər qadınların öhdəsinə qalır. Bunun səbəbi odur ki, kişilərin ailələrini saxlamaq üçün yeganə pul qazanmaq yolu Rusiyaya getməkdir. Ancaq Rusiya-Ukrayna müharibəsi davam etdiyindən ümid digər MDB ölkələrinə üz tutmaqdır".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Media mogikanları"nın dəstəklədiyi "müstəqil media" kimlərdir?

"Media haqqında" yeni qanunun qəbul olunmasından sonra media subyektləri reysterdən keçməyə başladı. Artıq demək olar ki, reysterdən keçməklə bağlı müraciətlər böyük əksəriyyətlə yekunlaşıb.

Qanunun tələbinə cavab verib, reysterdə qeydiyyatdan keçən media subyektləri ilə yanaşı mənfi cavab alanlar da oldu. Eyni zamanda xeyli subyekt də standartlara cavab verə bilmədiyi üçün, ümumiyyətlə, reysterə müraciət etmədi.

### Qanunun tətbiqinə başlanıldı

Qanunun qəbulu zamanı onlarla "məsləhətləşilməməsindən" narazı qalan bəzi beynəlxalq təşkilatlar dərhal "qanun müstəqil mediaya qarşıdır", "reyster nədir" sualı ilə qrant layihələrini başladılar.

Bir neçə nəfərdən ibarət "müstəqil ekspertlər" qanunla bağlı əks təbliğata başladılar. Lakin bu şantajlar qanunun tətbiqi ilə bağlı addımlar atılmasının qarşısını almadı. MEDİA qanunun tələbinə uyğun olaraq fəaliyyətə başladı və resyterə daxil olmayan subyektlərin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciətlər etdi. Qanunun qəbulundan sonrakı sakitlikdə yaddan çıxdıqlarını düşünən bu tipli subyektlər yenidən şantaja, eyni dairəyə aid saytlarda və sosial mediada haray-həşirə başladılar. Artıq təəccüblü olmasa da, "müstəqil ekspertlər" adı-sanı olmayan, heç bir oxucu kütləsinə xitab etməyən bu "saytların" fəaliyyəti ilə bağlı məhkəməyə müraciətləri "müstəqil medianın sıradan çıxarılması" kimi qələmə verməyə başladılar.

### Bu "müstəqillər" kimlərdir?

Əvvəlcə onu qeyd edək ki, yeni qanun qəbul olunmazdan əvvəl onun ortaya çıxma zərurəti, hədəfləri, atılacaq addımlar ətrafında geniş müzakirələr aparıldı, Milli Məclisdə dinləmələr də keçirildi. Sənədin müəllifləri və mütəxəssislər medianın şəffaflaşdırılması, sistemləşdirilməsi, "reket jurnalistika"nın, "bir telefon, bir jurnalist" prinsipinin sıradan çıxarılması baxımından qanunun əhəmiyyətini çatdırdılar.

Qanunda hər şey açıq, izahedici şəkildə əksini tapıb - kimlərin jurnalist, hansı qurumun media subyekti hesab olunmasına qədər hər şey detallı ortaya qoyulub.

Qanunun əsas hədəflərindən birinin məhz "reket media"nın sıradan çıxarılması olduğunu bu işlə məşğul olanlar da, "media mogikanları" da yaxşı bilirlər.

"Media mogikanlarının" "müstəqil media" dedikləri isə əllərinə telefon alıb, hansısa yolla yiyələndikləri köhnə "press jilet"i əyinlərinə keçirib, yağlı obyektlərə şığıyan, xırda məişət məsələlərini siyasi ajiotaja çevirənlərdir. Bu "telefon jurnalistləri" öz sosial şəbəkə səhifələrində çəkilişlərinin qiymətini belə yazırlar.

Məsələn, onlardan biri belə bir elan paylaşmışdı: "Şəhid və qazi ailələrindən pul götürmürəm, qalan çəkilişləri isə rayon məsafəsindən asılı olaraq 100-200 manata edirəm". Və ya başqa biri yenə öz sosial şəbəkə səhifəsində bir rayonda getdiyi orta məktəbdə direktorun çıxıb ona "salam verməməsindən, qabağına bir stəkan çay qoymamasından" gileylənmişdi.

Son günlərdə isə biz bu "telefonçu xalaların" bir-biri ilə polis idarəsindəki davalarını, bir-birinin şəxsi həyatını iyrəncliklə açıb tökdüklərini izləyirik.

Elə bu "telefonçu qızlardan" biri digər iki "telefonçu qızın" "reportaj" hazırlamaq üçün getdikləri yataqxanada şikayətçilərlə birgə araq içib, kabab yeyib, sonra da sərxoş olub, biabırçılıq törətdiklərini yazmışdı.

Hələ bu dəstənin yazdığı statuslardakı hərf səhvləri, sözləri adi orfoqrafik qaydalara əməl etmədən yazmalarının, "sayt" dedikləri subyektdəki yazılardakı ritorikanı demirik.

Budur, "müstəqil media", ay "media mogikanları", "böyük ekspertlər"? Evindən oturub "sayt işlədən" (özləri də belə deyirlər, elə bil yarmarkada "toçka" işlədirlər) bu şəxslər nə vaxtdan "müstəqil media" subyektləri olublar?

Artıq zaman yetişib. "Reket media" dövrünün bitmək üzrə olduğunu anlayırlar. Media mühitində şəffaflıqdan, reyestr sisteminin tətbiqindən sonra ciblərindəki saxta "jurnalist vəsiqələri"ndən şantaj üçün istifadə edilməsinin mümkün olmayacağı da hər kəsə aydındır.

Qanun qəbul olunub və artıq icrasına başlanılıb. Media Reyestri də normal, qanun əsasında fəaliyyət göstərən media qurumlarının, jurnalistlərin qeydiyyatını aparır. Prosesin gedişində təbii olaraq qeyri-qanuni fəaliyyətində əl çəkməyən "media" və "jurnalistlər"lə problemlər ortaya çıxır. Fəaliyyətini yeni qanun əsasında qurmaq istəməyən subyektlərin fəaliyyətinin məhdudlaşdırılması üçün MEDİA tərəfindən məhkəmədə iddialar qaldırılır. Bəzi hallarda köhnə vərdişlərindən əl çəkmək istəməyən "jurnalistlər" MEDİA məhkəməyə verir. Bütün bunlar normal hallardır. MEDİA-nı məhkəməyə verənlər düşünürlər ki, onu bu yoldan çəkindirəcək, qanunsuz fəaliyyətlərini bərpa edə biləcəklər. Amma bunun nəticə verməyəcəyini anlamalıdılar. Çünki bu işin ağırlığını üzərinə götürmüş MEDİA ilə yanaşı, sağlam media, peşəkar jurnalistika təmsilçiləri də bu dəstələrin ifşa olunaraq informasiya mühitindən birdəfəlik uzaqlaşdırılmasını istəyirlər. Bu şəbəkənin birdəfəlik sıradan çıxarılması məsələsində dövlət də, cəmiyyət də, əsl jurnalistika da eyni mövqedən çıxış edir.

MEDİA isə bu məsələnin birbaşa icraçısı kimi daha da qətiyyətli davranmalıdır. Qanun var və qanunun tələblərinə əməl olunmalıdır. Çünki MEDİA qanundan kənar heç nə tələb etmir. Odur ki, hansısa halda ehtiyatlı davranmaq üçün bir əsas yoxdur. Hər kəs qanun qarşısında bərabərdir. Ya qanuna tabe olub, onun tələbləri çərçivəsində fəaliyyət göstərəcəksən, ya da bu fəaliyyət qeyri-qanuni elan edilib, müvafiq tədbirlər görüləcək.

### Region mediasına bir baxış

Özü də bu tələblər təkcə Bakı ilə kifayətlənməməlidir. Region mediasının da bu baxımdan kifayət qədər problemləri var. Nəyə xidmət etdiyi bilinməyən rayon qəzetləri bu günün tələbləri ilə heç cür ayaqlaşmır, həmin qəzetlərin əməkdaşlarının isə kifayət qədər sual doğuran fəaliyyətlərinin olduğu sirr deyil. Region mediası hələ də sovet şinelindən çıxa bilməyib. Yerlərdə media orqanlarının fəaliyyətinin yeni qanunun tələbləri və müasir dövrün şərtləri əsasında qurulması üçün konsepsiya hazırlanmalı və həyata keçirilməlidir. Paytaxt Bakıda print medianın getdikcə tənəzzülə uğradığının şahidi olduğumuz bir vaxtda rayonlarda qəzet fəaliyyətindən danışmağa dəyərmi?

Region mediası ilə bağlı da islahatlar qaçılmazdır. Bu istiqamətdə regionlarda "Mətbuat Evləri"nin yaradılması, MEDİA tərəfindən qeydiyyata alınmış media subyektlərinin bürolarının həmin evlərdə fəaliyyəti üçün lazımi şərait yaradılması məqsədəuyğun olardı.

"Reket media"dan birdəfəlik xilas olmaq üçün Mətbuat Şurasının da üzərinə müəyyən vəzifələr düşür. Mətbuat Şurası bu işdə MEDİA-ya yaxından dəstək verməli, mətbuat mühitinin sağlamlaşdırılması, şəffaflaşdırılması istiqamətində təkliflər irəli sürüb, səylərini artırmalıdır.

# Vyanada Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının alman dilində nəşri təqdim edilib

Noyabrın13-də Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının alman dilində nəşrinin təqdimatı keçirilib.



Almaniyanın tanınmış Erqon-Nomos nəşriyyatının "Bibliotheca Academica" - Şərqşünaslıq sahəsində seçilmiş nəşrlər sırasında çap edilən kitabını alman dilinə Qiesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess tərcümə edib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova Mir Cəlal Paşayevin Azərbaycanda və ölkə hüdudlarından kənarda oxucular tərəfindən yazıçı və hekayə ustadı kimi tanındığını, lakin bununla yanaşı, ədəbiyyatşünaslıqda dahi Azərbaycan şairi Məhəmməd Füzuli yaradıcılığının əsas tədqiqatçılarından biri sayıldığını bildirib.

Füzulişünaslığın əsasını qoyan "Füzuli sənətkarlığı" əsərinin qələmə alınmasından 80 ildən çox vaxt keçməsinə baxmayaraq, o, əhəmiyyətini bu gün də qoruyub saxlayıb və şərqşünas-alim Mixael Raynhard Hessin tərcüməsində almandilli oxucular, elmi dairələr bu əsərlə tanış olmaq imkanı əldə ediblər.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli XX əsr Azərbaycan bədii nəsrinin inkişafında, elmi ədəbiyyatşünaslığın çağdaş səviyyədə formalaşmasında Mir Cəlal Paşayevin müstəsna xidmətlərindən danışıb, "Füzuli sənətkarlığı" monoqrafiyasının dünya füzulişünaslığında tutduğu yerdən bəhs edib. Qeyd edilib ki, Füzuli poetikasının ən müxtəlif problemlərini tədqiqat obyektinə çevirən alim öz elmi əsərində hər problem barədə yığcam, ancaq dərin məzmunlu və sonrakı tədqiqatlar üçün möhkəm elmi zəmin rolu oynayacaq fikirlərini izhar edib. Bununla da Mir Cəlal heç kəsə bənzəməyən araşdırıcılıq üsulu və orijinal mənbələrlə birbaşa işləməsi sayəsində Füzuli irsinin populyarlaşmasında əvəzedilməz xidmətlər göstərib, Azərbaycan füzulişünaslığının inkişafına böyük təkan verib.

Filologiya üzrə elmlər doktoru professor Tərlan Quliyev çıxışında XVI əsrdə yaşayıb-yaratmış və Şərqin, xüsusilə də türkdilli xalqların ən böyük şairlərindən biri olan Məhəmməd Füzulinin yaradıcılığının tədqiqi tarixinə nəzər salıb. Diqqətə çatdırılıb ki, bu əsərlərdə verilən məlumatlar olduqca qısa olmaqla bərabər, təzkirə xarakteri daşıyıb. Füzuli əsərlərinin müasir dünya şərqşünaslığı, Avropa standartları baxımından elmi-metodoloji əsaslarla təhlili tarixi isə təqribən 70-80 il bundan əvvəl başlayır və bu tarixin ən ön cərgəsində Mir Cəlal və onun "Füzuli sənətkarlığı" əsəri durur. Füzuli yaradıcılığının poetik xüsusiyyətlərinə toxunan T.Quliyev deyib ki, Mir Cəlal öz tədqiqatlarında Füzulinin həm poetik xüsusiyyətlərini açıb, həm də əsərlərinin məzmununun şərhini ustalıqla verib.

Azərbaycan Xarici İşlər Nazirliyinin Linqvistik təminat idarəsinin rəisi Rizvan Nəbiyev ölkəmizin zəngin tarixinin, mədəniyyətinin və ədəbiyyatının Avropada, ümumiyyətlə, dünyada tanıdılmasında ictimai diplomatiyanın əhəmiyyətini vurğulayıb, "Füzuli sənətkarlığı" əsərinin alman dilinə tərcüməsinin Ümummilli Lider Heydər Əliyevin 100 illik və görkəmli alim Mir Cəlalın 115 illik yubileylərinə töhfə olduğunu bildirib. M.R.Hesslə uzun illərdən bəri elmi əməkdaşlıq edən və birgə kitab layihələri hazırlayan R.Nəbiyev diqqətə çatdırıb ki, Berlin Azad Universitetində dahi şairimiz İmadəddin Nəsimi mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Hess azərbaycanlı və avropalı oxuculara "Şuşanın irsi" kitabının müəllifi kimi də tanışdır. Otuz ildən bəri türkdilli xalqların dil və ədəbiyyatını tədqiq edən alim türk, Azərbaycan, fars və ərəb dillərinə dərindən bələd olması sayəsində Mir Cəlalın Füzuli yaradıcılığına dair əsərini tərcümə edərkən bütün dil xüsusiyyətlərini və incəliklərini alman dilinə məharətlə çevirə bilib.

Şərqşünas-alim Mixael Raynhard Hess çıxışında Mir Cəlalın "Füzuli sənətkarlığı" əsərinin alman dilinə ilk tərcüməsinin oxucular üçün əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, Mir Cəlal bu əsəri yazmaqla Füzuli irsinin araşdırılmasında fundamental tədqiqat işi ortaya qoyub, eyni zamanda ötən əsrin 30-40-cı illərində Azərbaycan mədəni irsinin qorunmasına böyük töhfə verib. Özündən əvvəlki bütün ədəbi-mədəni nailiyyətləri inkar edən sovet ideologiyasının hökm sürdüyü həmin dövrdə məhz Mir Cəlal sayəsində elmi-ictimai düşüncədə Füzuli və onun dövrü dərin kök salıb, unudulmaqdan və senzura tərəfindən qadağan edilməkdən xilas olub.

Bildirilib ki, alman dilinə tərcümə sayəsində füzulişünaslığa maraq göstərənlər Füzuli irsi ilə elmi əsaslarla və geniş spektrdə tanış olmaqla yanaşı, onun qəzəl, qəsidə və digər əsərlərinin alman dilinə bədii tərcüməsini oxumaq imkanı əldə edəcəklər. Bununla yanaşı, oxucular Mir Cəlalı yazıçılıqla bərabər, bir alim kimi də kəşf edəcək, həmçinin ötən əsrdə sovet ideologiyasının hökm sürdüyü bir mühitdə elmi-ədəbi yaradıcılıq fəaliyyətinin ən sanballı əsərinin təşəkkülü tarixi ilə tanış ola biləcəklər.

M.R.Hess Füzuli yaradıcılığının tərcümə xüsusiyyətlərindən bəhs edib, onun məşhur qəzəllərindən birini nümunə olaraq Azərbaycan və alman dillərində səsləndirib.

Görkəmli ədibin qızı, Bakı Dövlət Universitetinin Ədəbiyyatşünaslıq tarixi kafedrasının müdiri professor Ədibə Paşayeva çıxışında "Füzuli sənətkarlığı" əsərinin alman dilinə tərcüməsinə və təqdimat mərasiminin təşkilinə görə Mir Cəlalın ailəsi adından minnətdarlıq edib. Hər bir yaradıcı insanın ömrünün onun bizə miras qoyub getdiyi əsərlərdə yaşamaqda olduğunu qeyd edən Ə.Paşayeva bu gün də Mir Cəlal dühasının onun bədii və elmi əsərləri sayəsində bizlərlə olduğunu vurğulayıb. "Mir Cəlalın elmi irsinin əhəmiyyəti, dəyəri artıq bir əsr keçəndən sonra da öz gücünü, təsirini, qiymətini itirməyibsə, bu, alimin çox böyük uğurudur. Ümidvaram ki, bu elmi əsər Şərq ədəbiyyatı, mədəniyyəti ilə maraqlanan elm adamları üçün dəyərli və cəlbedici bir mənbə olacaq", - deyə o vurğulayıb.

Ə.Paşayeva həmçinin deyib ki, bir vaxtlar görkəmli ədibin Bakıda, İçərişəhərdə yaşadığı və Hüseyn Cavid, Abdulla Şaiq, Mikayıl Müşfiq, Səməd Vurğun kimi dövrünün görkəmli şair və yazıçılarının qonaq gəldiyi mənzil bu gün ədibin evi kimi fəaliyyət göstərir, onun sağlığındakı həmin ruha sadiq qalaraq, şair və yazıçıların, eləcə də oxucuların mütəmadi şəkildə bir araya gəldikləri ədəbiyyat ocağına çevrilib. Burada fəaliyyət göstərən Ədəbiyyata Dəstək Fondu Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, ədəbi irsini tədqiq və təbliğ edəcək tədbirlər həyata keçirir.

Qeyd edək ki, Azərbaycan füzulişünaslığının banisi Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasını 1958-ci ildə genişləndirərək "Füzuli sənətkarlığı" adı altında monoqrafiya kimi nəşr etdirib. Monoqrafiya XVI əsrdə yaşayıb-yaratmış dahi şairimiz Məhəmməd Füzulinin ədəbi yaradıcılığı və sənəti, o cümlədən şeir mədəniyyəti və bədii nəsri haqqında elmi araşdırmaları əks etdirir. Mir Cəlal kitabında Füzuli yaradıcılığının ayrı-ayrı məsələləri və motivlərinin araşdırılması ilə yanaşı, onun ümumi ədəbi mənzərəsini elmi cəhətdən verməyə nail olub.

Çıxışlardan sonra Azərbaycan musiqiçiləri konsert proqramı ilə çıxış ediblər. Xanəndələr Rəvanə Qurbanova və Səbuhi İbayev "Leyli və Məcnun" operasından Leyli və Məcnunun qarşılaşması səhnəsini, eləcə də Məhəmməd Füzulinin qəzəllərinin də yer aldığı muğamları ifa ediblər. Onları tarda Kamal Nuriyev və kamançada Xəyyam Məmmədov müşayiət ediblər.

# Ankarada Şuşa mədəniyyət günlərinin açılış mərasimi olub

Noyabrın 13-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə Ankarada Şuşa mədəniyyət günlərinin açılış mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, TÜRKSOY-un baş ofisində təşkil olunan tədbirdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov və digər rəsmilər iştirak ediblər.

Qarabağın incisi olan tarixi Şuşa üçün çox mühüm əhəmiyyət kəsb edən tədbirdə çıxışı zamanı Aydın Kərimov 2023-cü il ərzində Şuşa şəhərinin türk xalqlarının mədəniyyətini, zəngin tarixini əks etdirən bir çox tədbirə evsahibliyi etdiyini diqqətə çatdırıb. Tədbirdə şuşalı rəssamların şəhərin tarixini, özünəməxsus təbiətini, gözəlliyini özündə əks etdirən rəsm əsərləri nümayiş olunub, muğam ustalarının ifasında doğma Qarabağımızın tərənnümü ilə bağlı mahnılar səsləndirilib.

# Şuşanı daha çox sevmək və yenidən kəşf etmək üçün "Əziz Şuşa" kitabı əvəzsiz mənbədir



Ankarada Şuşa mədəniyyət günləri çərçivəsində noyabrın 14-də Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Cümhurbaşkanlığı Milli Kitabxanasında "Əziz Şuşa" kitabının təqdimat mərasiminə qatılıb.

AZƏRTAC xəbər verir ki, Aydın Kərimov çıxışında Şuşanı daha çox sevmək və yenidən kəşf etmək üçün mükəmməl vəsait olan "Əziz Şuşa" kitabını əvəzsiz bir mənbə adlandırıb.

Təqdimat mərasimindən sonra Aydın Kərimov Ankarada Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılmış heykəlin önünə gül dəstəsi qoyub.

# Türkiyənin Prezident Kitabxanasında "Şuşa - zirvədən uca" kitabının təqdimatı

Noyabrın 14-də Türkiyənin Prezident Kitabxanasında Azərbaycan Mədəniyyət Nazirliyi, "İrs" nəşriyyat evi və "PAŞA Həyat Sığorta" ASC-nin birgə layihəsi kimi çap olunan "Şuşa - zirvədən uca" kitabının təqdimatı və fotosərgi keçirilib.



Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Türkiyənin tanınmış dövlət və ictimai xadimləri, o cümlədən Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım və digər qonaqlar iştirak ediblər.

Tədbirdə Şuşa şəhərində həyata keçirilən bərpa və yenidənqurma işlərini əks etdirən videoçarx nümayiş etdirilib. Bildirilib ki, "Şuşa - zirvədən uca" kitabında şəhərin qədim tarixi, mədəni həyatı, abidələri, işğal dövründə dağıntılara məruz qalması və azad edilməsi ilə bağlı faktlar və fotolar əksini tapıb.

Sonra tədbir iştirakçıları Türkiyənin Prezident Kitabxanasındakı Azərbaycan guşəsi ilə tanış olublar.

Guşənin zənginləşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən kitabxanaya ölkəmizin tarix və mədəniyyətinə dair kitablar hədiyyə edilib.

Sonda Şuşa şəhərinin tarixi, abidələri, işğalı, azad edilməsi və burada dövlətimiz tərəfindən aparılan bərpa-quruculuq işlərini əks etdirən fotolardan ibarət sərgiyə baxış olub.

# Milli Kitabxana IX Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində tədbirlər keçirir

Noyabrın 14-də 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Qarabağın incisi Şuşa" adlı elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.

Tədbiri Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov açaraq, 2022-ci ilin "Şuşa ili" olduğunu, 2023-cü ilin isə Şuşanın türk dünyasının mədəniyyət paytaxtı elan edildiyini vurğulayıb. Natiq bununla əlaqədar olaraq Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Qarabağın incisi Şuşa" adlı elektron məlumat bazasının hazırlandığını bildirib.

Təqdimat zamanı elektron məlumat bazasının "Rəsmi sənədlər", "Prezident İlham Əliyev: "Əziz Şuşa, sən azadsan!"", "Qarabağın tacı Şuşanın əsas tarixi hadisələrinin xronologiyası", "Tarixi abidələr", "İnzibati quruluşu", "Görkəmli şəxsiyyətləri", "Görkəmli şəxsiyyətlər Qarabağın mirvarisi - Şuşa haqqında", "Şuşada erməni vandalizmi", "Nəşrlər", "Fotoqalereya", "Videoqalereya" bölmələrindən ibarət olduğu bildirilib.

Elektron məlumat bazası ilə tanış olmaq istəyənlər **http://anl.az/el/emb/D.QARABAQ/** linkindən istifadə edə bilərlər.

# Fransanın dünya mediasını Azərbaycanla bağlı əks-təbliğata çəkməsi yolverilməzdir

Fransanın Azərbaycanla Ermənistan arasında münasibətlərə dair qərəzli, erməniпərəst mövqeyi Azərbaycan ictimaiyyətində və ölkəmizin jurnalist cameəsində narazılıq və narahatlıq doğurmaqdadır.

Bu narazılığın müxtəlif media materiallarında, eləcə də ayrı-ayrı vətəndaşlara məxsus sosial şəbəkə profillərində ifadəsini tapması təbiidir. Təəssüf ki, dünyanın bəzi media orqanları məsələyə xüsusi rəng qatmaqda, cəmiyyətimizin Fransanın birtərəfli və qərəzli mövqeyindən haqlı etirazlarına qeyri-adekvat məzmun qazandırmaqda və mövcud xüsusda Azərbaycan dövlətini hədəfə almaqda, bütövlükdə respublikamız əleyhinə mənfi beynəlxalq rəy formalaşdırmaqdadırlar. Fransanın dezinformasiya ilə mübarizə qrupunun yaydığı son məlumatın Qərb mediasında tirajlanması da bu cür xoşagəlməz niyyətin göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Mətbuat Şurasının yaydığı etiraz bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Qeyd edək ki, "Reuters" Agentliyinin xəbərinə görə, sözügedən qrup 2024-cü ildə Parisdə keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarının boykot edilməsi istiqamətində fəaliyyət göstərənlər arasında bir azərbaycanlının olduğunu müəyyənləşdirib. Həmin şəxs "X" sosial şəbəkəsindəki profilində Fransanı qınayaraq bildirib ki, insan hüquqlarının pozulduğu ölkədə Olimpiya Oyunlarının keçirilməsi yolverilməzdir. Hazırda dünyada Fransanın qlobal miqyasda apardığı siyasətdən narazılığın artdığı şəraitində bu təşkilatın qərəzli şəkildə yalnız Azərbaycana köklənməsi anlaşılan deyil və son dərəcə bəsit yanaşmanın göstəricisidir.

Əvvələ hər bir şəxsin sosial şəbəkədə öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququ var. İkincisi, hazırkı qloballaşma dövründə sosial şəbəkələrdə xalq və millət məsələləri deyil, fərd anlayışı, o cümlədən istifadəçilərin öz düşüncə və baxışlarını yayması aktualdır. Əgər həmin baxışlarda qaydalara zidd cəhətlər varsa, bunun araşdırılması və müvafiq tədbir görülməsi sosial şəbəkələrin müstəsna hüququdur. Üçüncüsü, sıravi bir sosial şəbəkə istifadəçisinin bölüşdüyü fikirlərin dövlətlə, indiki halda Azərbaycan dövləti ilə əlaqələndirilməsinə cəhdin özü belə olduqca qeyri-peşəkar və bəsit yanaşmadır. Belə təqdimat təsdiq edir ki, Fransanın sözügedən təşkilatı da ölkəmiz əleyhinə aparılan qərəzli təbliğatın alətidir.

Onu da bildirməliyik ki, Azərbaycana münasibətdə qərəzli və çirkin kampaniya aparan Fransa mediasının davamlı və ardıcıl xarakter daşıyan yarıtmaz xəttinin təkanverici qüvvəsinin məhz Fransa dövləti olması artıq hamıya aydındır. Ölkənin nüfuzlu media orqanları belə təlimatların Yelisey sarayından aldıqlarını gizlətmirlər. Aydın görünür ki, bu addımlarla Fransa dövləti özünün daxili və xarici siyasətdəki uğursuzluğunu, ölkədə hökm sürən ksenofobiya, antisemitizm kimi meyilləri, rasizmin getdikcə güclənən təzahürlərini, insan hüquqlarının pozulması hallarının artmasını, habelə neokolonialist siyasətinin yaratdığı fəsadları pərdələməyə çalışır. Cənubi Qafqaz coğrafiyasında erməni avantürizmini körükləyən, onu maliyyələşdirən, silahlandıran Fransa fəaliyyətinə qloballıq libası geyindirdiyini zənn edir, əslində isə, neokolonializm siyasətini növbəti regiona transfer etməklə orada yeni münaqişə ocaqları yaradır. Bu xüsusda Azərbaycanın hədəfə alınması, ayrı-ayrı media orqanlarında ölkəmizlə bağlı qərəzli məqamların qabardılması Fransa dövləti adına son dərəcə miskin mənzərə formalaşdırır.

Azərbaycan Mətbuat Şurası belə mənfi təmayülləri qətiyyətlə pisləyir, dünya mediasını Azərbaycan əleyhinə aparılan təbliğat kampaniyasında iştirakdan uzaq durmağa, həssaslıq nümayişinə, ölkəmizlə bağlı dezinformasiya yayımından, dəqiqləşdirilməmiş, təsdiqini tapmamış məsələləri işıqlandırmaqdan çəkinməyə, əsl həqiqətlərə diqqət yetirməyə çağırır".

# İŞİMİZ, GÜZƏRANIMIZ



# ECO Azərbaycanın uğurlarını təqdir edir

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı getdikcə genişlənir. Həm ölkəmiz, həm də təşkilatın üzv dövlətləri bu münasibətləri daha da inkişaf etdirməkdə qərarlıdırlar. ECO-nun cari il noyabrın 9-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən 16-cı Zirvə toplantısı bunu bir daha aydın göstərdi.

Tədbirdə tarixi qələbəsi - Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoyması və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etməsi münasibətilə Azərbaycanın ünvanına çoxsaylı təbrik səsləndi. Bununla yanaşı, ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər vurğulandı. Azad edilmiş ərazilərimizdə görülən genişmiqyaslı işlərdən bəhs olundu, əməkdaşlığın perspektivlərindən danışıldı. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində ölkəmizin sədrliyi çərçivəsində həyata keçirilən tədbirlərin və təşəbbüslərin tərəfdaşlığın genişlənməsinə böyük töhfə verdiyini vurğuladı. Qeyd olundu ki, Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirilir. Ekologiya sahəsində yüksəksəviyyəli dialoq platforması yaradılıb. Turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib. Özbəkistan Azərbaycan və Türkiyə ilə yükdaşımalarla bağlı məlumatları rəqəmsallaşdırıb və digər ölkələrlə də analoji layihələr həyata keçirilir.

Zirvə toplantısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ECO-nun üzvü kimi ölkəmizin təşkilatın işində fəal iştirak etdiyini diqqətə çatdırdı. Məsələn, ötən ay Şuşada ECO Nazirlər Şurasının iclası keçirilib. Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub və Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. İndi bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükdaşıma qabiliyyətinin genişləndirilməsi üzərində iş aparılır. Ümumiyyətlə, son iki onillikdə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar həcmində sərmayə qoyulub və bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdəki münbit sərmayə iqlimi nəticəsində mümkün olub.

Təbii ki, günümüzün əsas mövzularından biri - bərpaolunan enerji məsələsindən də geniş bəhs edilib. Bu barədə dövlətimizin başçısı belə deyib: "Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk. Azərbaycanın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir. Azərbaycan yaxın gələcəkdə "yaşıl və hidrogen enerjisi"nin ixracatçısına çevriləcək. Dünyanın aparıcı "yaşıl enerji" şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılışı olub. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş-elektrik stansiyasıdır. Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə öz çıxışında Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərinin ən yaxın dövrdə yaradılmasının da xüsusi strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Nəqliyyat məsələləri Daşkənddə dövlətimizin başçısının İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşündə də əsas yer tutub. İran Prezidenti deyib: "Biz nəqliyyat və tranzit sahələrində vəziyyətin gündən-günə yaxşılaşdığını müşahidə edirik. Ölkələrimiz arasında nəqliyyat işi getdikcə artır. Bu, həm sizin, həm də bizim hədəflədiyimiz məsələdir. Araz çayı üzərindən keçən Ağbənd marşrutu və bizim orada bir-birimizlə razılaşdıraraq həyata keçirdiyimiz layihələr hər iki ölkənin maraqlarına cavab verir. Bu, Azərbaycan, İran və Naxçıvan arasında nəqliyyat əlaqələrinə zəmanət verir və bu sahədəki qayğıları aradan qaldırır."

Prezident İlham Əliyev İran və Azərbaycan nümayəndələrinin birgə işi nəticəsində Araz çayının cənub sahili boyunca dəmir yolu və avtomobil xətti marşrutunun keçməsinin razılaşdırıldığından məmnunluğunu ifadə edib. Belə ki, bu layihə qısa müddətdə həyata keçiriləcək və "Şimal-Cənub" nəqliyyat dəhlizinin daha bir istiqamətinə çevriləcək. Nəticədə bizim iki marşrutumuz olacaq: biri Astara çayı üzərindən, digəri Ağbənd ərazisindən. Prezidentimiz bildirib ki, hər iki marşrut İranla Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcək, həmçinin qonşularımız və digər tərəfdaş ölkələr üçün əlçatan olacaq.

Bu görüşdə İran tərəfindən Qarabağdakı yenidənqurma və bərpa işlərində bizə dəstək vermək istəyi də ifadə edilib.

Prezident İlham Əliyevin Daşkənddə Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar ilə görüşü də Azərbaycanın ECO-nun üzv dövlətləri ilə təkcə çoxtərəfli deyil, həm də ikitərəfli əməkdaşlığı getdikcə genişləndirdiyinə əyani misaldır. Görüşdə Azərbaycan ilə Pakistan arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq bildirilib. İqtisadi-ticari münasibətlərin, biznes dairələri arasında əlaqələrin genişləndirilməsi məsələlərinə toxunulub. Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi qeyd edilib. Həmçinin enerji və nəqliyyat bağlantıları sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. İmtiyazlı ticarət münasibətlərinin ölkələrimiz arasındakı ticarət dövriyyəsinin həcminin artırılmasına müsbət təsir göstərəcəyi qeyd edilib. İnformasiya-kommunikasiya texnologiyaları, turizm sahələrində əməkdaşlığın, iki ölkənin şəhərləri arasında bu yaxınlarda birbaşa hava əlaqəsinin yaradılmasının müsbət addım olduğu bildirilib. Bunun turizm sahəsində əməkdaşlığa və insanlar arasındakı təmaslara müsbət təsir göstərəcəyi vurğulanıb.

ECO-nun 16-cı Zirvə toplantısı göstərdi ki, bu təşkilatın üzv dövlətləri qarşısında daha geniş əməkdaşlıq perspektivləri var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Yanvar-oktyabr aylarında 100,9 milyard manatlıq ÜDM istehsal edilmişdir

Cari ilin yanvar-oktyabr aylarında ölkədə 100,9 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.



Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,3 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,1 faiz artmışdır.

ÜDM istehsalının 41,3 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,0 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,0 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 9938,7 manata bərabər olmuşdur.

## Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 7,4 faiz artmışdır

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ilin yanvar-oktyabr aylarında 55,6 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir.



Neft-qaz sektorunda məhsul istehsalı 2,4 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 7,4 faiz artmışdır. Sənaye məhsulunun 68,1 faizi mədənçıxarma, 26,6 faizi emal, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 920 manatdır

Oktyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 719,8 min nəfər olmuşdur. Onlardan 890,9 min nəfəri iqtisadiyyatın dövlət, 828,9 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.



Dövlət Statistika Komitəsi xəbər verir ki, muzdla işləyənlərin 18,9 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2023-cü ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 919,8 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Əsas kapitala 17,1 faiz çox vəsait yönəldilmişdir

Bu ilin 10 ayı ərzində əsas kapitala 14 milyard 258,0 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 17,1 faiz çox vəsait yönəldilmişdir.



Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20,4, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,4 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 8 milyard 414,6 milyon manatı və ya 59,0 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 108,0 milyon manatı (35,8 faizi) xidmət sahələrinə, 735,4 milyon manatı (5,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 11 milyard 031,1 milyon manatını və ya 77,4 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 10 milyard 444,4 milyon manatı və ya 73,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,5, büdcə vəsaitləri 40,8, əhalinin şəxsi vəsaitləri 6,3, bank kreditləri 2,5, sair vəsaitlər isə 4,9 faiz təşkil etmişdir.

## Böyük qayıdışa dair məşğulluq məsələləri müzakirə olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapan məşğulluq məsələləri ilə bağlı müzakirə aparılıb.



İİTKM-in icraçı direktoru Vüsal Qasımlı, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəylinin iştirak etdiyi görüşdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aktiv işçi qüvvəsi tələb edən sahələr müzakirə olunub. Bu sahələr əsasən dövlət və özəl olmaqla bir neçə istiqamət üzrə təsnifatlandırılıb. Bundan başqa Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2024-cü ildə tikintisi planlaşdırılan obyektlər, köçürülən əhalinin peşə hazırlığı, pilot layihələrin icrası və s. digər əhəmiyyətli məsələlərdən danışılıb.

Fikir mübadiləsinin ardınca müzakirələrin davam etdirilməsinə qərar verilib. Həmçinin müzakirə mövzusu olan bölgəyə birgə səfərlərin həyata keçirilməsi və araşdırmaların aparılması haqqında razılıq əldə olunub.

## Yanvar-oktyabr aylarında sosial müavinətlərə 831 milyon manat ödənilib

Bu ilin 10 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 474 min nəfərə sosial müavinət, 376 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib.

Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 25 faiz çox olmaqla 831 milyon manat, Prezident təqaüdləri üzrə 20 faiz çox olmaqla 537 milyon manat ödənilib.

Yanvar-oktyabr aylarında 114 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 544 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Moldovanlar DOST-la maraqlanıblar

Moldova Respublikasının Sosial Sığorta üzrə Milli Kassanın direktoru Yelena Tibirnanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir.

Səfər Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldovanın Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq istiqamətləri üzrə 2023-2024-cü illərdə görüləcək işləri əhatə edən Fəaliyyət Planı çərçivəsində həyata keçirilir.

Məqsəd DOST konsepsiyası, habelə sosial xidmətlərin vahid platformadan və avtomatlaşdırılmış qaydada göstərilməsi sahəsində ölkəmizin təcrübəsini öyrənmək, bu sahədə fikir mübadiləsi aparmaqdır.

Qonaqlar əvvəlcə 1 saylı Bakı DOST Mərkəzində əhaliyə göstərilən xidmətlərlə tanış olub. DOST mərkəzlərinin fəaliyyəti və iş prinsipi barədə nümayəndə heyətinə məlumat verilib. Qeyd edilib ki, DOST mərkəzlərində sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur.

Daha sonra nümayəndə heyətinin Agentliyin müxtəlif bölmə rəhbərləri ilə görüşləri keçirilib. Görüşlərdə əməkdaşlıq əlaqələri müzakirə edilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Agentliyin bölmələrinin iş prinsipləri izah olunub.

13-18 noyabr tarixlərini əhatə edən səfər çərçivəsində Moldova nümayəndə heyətinin bir sıra görüş və tədbirlərdə iştirakı da nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycanın "DOST" mərkəzləri modeli (konsepsiyası) Moldova Respublikasında tətbiq ediləcək. İndiyədək DOST Agentliyi ilə Moldovanın Sosial Sığorta üzrə Milli Kassası arasında təcrübə mübadiləsi çərçivəsində müxtəlif tədbirlər, səfərlər təşkil olunub, işçi qruplarının görüşləri keçirilib.



## Yerli investisiyalı müəssisələrin e-qeydiyyatının xüsusi çəkisi 97,2 faizə çatıb

Bu il noyabr ayının 1-nə respublika üzrə uçotda olan 1.499.032 vergi ödəyicisinin 87,3 faizi fiziki şəxslər, 12,7 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.

İqtisadiyyat Nazirliyindən bildiriblər ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 7,3 faiz, o cümlədən fiziki şəxslərin sayı 7 faiz, hüquqi şəxslərin sayı isə 9 faiz artıb. Dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının sayı 173.754 təşkil edib. 2022-ci ilin eyni dövrü ilə müqayisədə kommersiya qurumlarının sayında 9,7 faiz, aktiv kommersiya qurumlarının sayında isə 13,1 faiz artım qeydə alınıb. 2023-cü ilin noyabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 90,6 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,3 faizi səhmdar cəmiyyəti, 1,1 faizi kooperativ və s. formalarda yaradılıb. Bu dövrdə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 34.148 vahid təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz artım deməkdir.

2023-cü ilin 10 ayında 13.247 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların da 87,7 faizi yerli, 12,3 faizi isə xarici investisiyalıdır. Qeydiyyatdan keçmiş kommersiya qurumlarının 84,4 faizi elektron qaydada qeydə alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97,2 faiz təşkil edib. 2023-cü ilin 10 ayında yeni qeydiyyat üsulu (fin kod+mobil nömrə) ilə 1.831 yerli investisiyalı MMC qeydiyyata alınıb.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində fəaliyyəti aktivləşdirilmiş (bərpa edilmiş) hüquqi şəxslərin sayı 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 13,1 faiz, fəaliyyəti aktivləşdirilmiş ƏDV ödəyicilərinin sayı isə 15,1 faiz artıb.

Noyabr ayının 1-nə 22.188 xarici investisiyalı kommersiya qurumu dövlət qeydiyyatından keçib. Aktiv xarici investisiyalı kommersiya qurumlarının sayı 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz artıb.

# Mövsüm dəyişikliyi orqanizmə təsirsiz ötüşmür

Havanın dəyişməsi, günəş işığının azalması və rütubətin artması ilə müşahidə edilən payız aylarında insan orqanizmində bir sıra dəyişikliklər baş verir. Statistikaya görə, xroniki xəstəliklərin kəskinləşməsi də məhz bu mövsümə təsadüf edir. Mütəxəssislər bildirirlər ki, fəslin dəyişməsi ilə əlaqədar yaranan stress sağlam insanlara da mənfi təsir göstərir.

## Gün qısalması depressiyaya səbəb olur

Səhiyyə Nazirliyi Ailə Planlanması Məsləhətxanasının həkimi Nüşabə Qasımova bildirir ki, payızda yuxusuzluq, baş ağrıları, həzm problemləri və bu kimi digər hallara daha çox rast gəlinir: "Simptomların bəziləri yay və payız arasında keçid nəticəsində yaranır. Bu da orqanizmin yorğunluğuna gətirib çıxarır, bizim təbii qəbul etdiyimiz, lakin ümumi tarazlığımız üçün təsəvvür etdiyimizdən çox təsir göstərən dəyişikliklərə uyğunlaşmağa məcbur oluruq".

N.Qasımova deyir ki, payızın gəlişi ilə günlər qısalır, havanın temperaturu aşağı düşür və yağışlar başlayır. Orqanizmin vəziyyətinə ən çox təsir edən amil də işıq saatlarının getdikcə azalmasıdır. "Bu dəyişiklik əhvalımıza təsir edir və bizi yüngül narahatlıq və melanxoliya vəziyyətlərinə məruz qoyur. Mövsümi affektiv pozğunluq insanların payız və qış aylarında günəş işığına daha az məruz qalması səbəbindən depressiyaya düşdüyü bir vəziyyətdir. Yorğunluq, diqqətin zəifləməsi, ürəkbulanma, psixomotor yavaşlama mövsümi dəyişikliklərlə əlaqədar olaraq çox yayılmış bir sindromdur. Açıq havada vaxt keçirmək, meditasiya etmək mövsüm dəyişikliyi ilə mübarizə aparmağın ən yaxşı yollarından biridir", - deyə həkim bildirib.

## Yorğunluq və yuxu pozuntusunun səbəbi vitamin çatışmazlığıdır

Payız aylarında insanlarda yorğunluq, səbəbsiz narahatlığın müşahidə edildiyini bildirən həkim bu göstəricilərin tibbi açıqlamasının mövcud olduğunu deyir: "Məhz bu hallar orqanizmdə mövcud olan vitaminlər və mikroelementlərin çatızmazlığı ilə əlaqələndirilir. Qidalanmaya diqqət etməli və rasionda bol vitaminli yeməklərə üstünlük verərək immunitet sistemimizi gücləndirməliyik. Ən önəmlisi mütəxəssis məsləhəti ilə orqanizmlərin virusa qarşı immunitetini formalaşdıran, mərkəzi sinir sistemini də dəstəkləyən vitamin D qəbulu məsləhət görülür".

N.Qasımova bundan əlavə, immunitetin güclənməsində mühüm rol oynayan C vitamininin immun hüceyrələrimizi yad cisimlərdən qorumaq gücünə malik olduğunu, B qrupu vitaminlərinin isə maddələr mübadiləsində aktiv iştirakı ilə yanaşı, ürək-damar sistemini və qan dövranını yaxşılaşdırdığını da bildirir.

"Əhvali-ruhiyyənin yüksəldilməsi və ümumi olaraq orqanizmin yaxşı işləməsi üçün 2 mikroelement vacibdir. Bunlardan biri sink, digəri isə maqneziumdur. Payız aylarında sink mikroelementinin çatışmazlığı nəticəsində immun sistemi hüceyrələri öz fəaliyyətini dayandıra bilər. Belə olduqda bədənin viruslara qarşı müqaviməti nəzərəçarpacaq dərəcədə azalır. Maqnezium isə vitaminlərin ko-faktoru, yəni köməkçi rolunda çıxış edir. Xüsusilə vitamin D-nin sorulmasında, neyromediatorların (neyronlararası bioloji fəal maddələr) mübadiləsində yaxından iştirak edir. Bu mikroelement çatızmazlığı zamanı insanda yorğunluq, zəiflik, yuxu pozğunluğu müşahidə edilir", - deyə həkim bildirib.

## Açıq havada aktiv fiziki fəaliyyət hər fəsildə tövsiyə edilir

Payız mövsümünün allergiyası olan şəxslər üçün narahatlıq yarada biləcəyini bildirən mütəxəssis müxtəlif bitkilərin polenlərinin allergik reaksiyalara səbəb olduğunu qeyd edir: "Bu, asqırma, gözlərdə qaşınma və tıxanıqlıq kimi simptomlara səbəb ola bilər. Belə hallardan yayınmaq və ya təsirlərini minimuma endirmək üçün hava proqnozlarında polen miqdarını daim müşahidə etmək və havada normadan artıq polen olduğu halda açıq hava fəaliyyətlərindən yayınmaq lazımdır. Eyni zamanda otaqda hava saflaşdırıcılarından istifadə, həkim məsləhəti ilə allergiya əleyhinə dərmanlar qəbul etmək və təmizliyə riayət etmək vacibdir".

N.Qasımova qida rasionuna faydalı elementlərin bol olduğu mövsümi meyvə və tərəvəzlərin əlavə edilməsini tövsiyə edir: "Balqabaq, alma, şirin kartof, göbələk, paxlalılar və qoz kimi qidalarda vitamin A, vitamin C, beta-karotin, karbohidrat və faydalı yağlar mövcuddur. Qidalanmaya diqqət etmək və rasionda bol vitaminli yeməklərə üstünlük vermək bizi mövsümi qriplərdən qoruyur, ən əsası isə immunitet sistemimizi gücləndirir".

Havaların kəskin soyuması və temperatur dəyişiklikləri nəticəsində insanların açıq havada keçirdiyi vaxtın nəzərəçarpacaq dərəcədə azaldığını vurğulayan mütəxəssis iqlim şəraitinin getdikcə sərtləşməsinə baxmayaraq, açıq hava fəaliyyətindən imtina etməyin yanlış fikir olduğunu bildirir. Onun sözlərinə görə, təbiətdə gəzintilər, velosiped sürmək, eyni zamanda mövsümi idman növlərindən (buz meydançasında idman, evdə yoqa, qapalı idman zallarından və hovuzlarından yararlanmaq və s.) istifadə həm psixoloji-mental vəziyyəti yaxşılaşdırır, həm də aktivliyi artıraraq motivasiyanı yüksəldir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Şəkərli diabet xəstəlik yox, həyat tərzidir

1991-ci ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Federasiyasının təşəbbüsü ilə noyabrın 14-ü Ümumdünya Diabetlə Mübarizə Günü kimi qeyd edilir. 2007-ci ildən həmin gün BMT-nin himayəsi altında keçirilir.

2006-cı ildə isə BMT Baş Assambleyası şəkərli diabetlə bağlı qətnamə qəbul edib. Qətnamənin qəbul edilməsində məqsəd ictimaiyyəti xəstəliyin yaranma səbəbləri, əlamətləri, fəsadları, müalicəsi və profilaktikası barədə məlumatlandırmaq, inkişafının qarşısının alınması yollarını araşdırmaqdır.

AZƏRTAC tibbi mənbələrə istinadən xəbər verir ki, 1922-ci ilin yanvarında Frederik Bantinq ilk dəfə insulinin inyeksiyasını şəkərli diabetin ağır formasından əziyyət çəkən 14 yaşlı oğlana vuraraq onun həyatını xilas edib. O, bundan sonra ixtira etdiyi insulinə patent almaq hüququnu Toronto Universitetinə verib. Həmin ilin axırlarında yeni preparat dərman bazarına çıxarılıb.

Frederik Bantinqin Con Makleodla birlikdə ixtira etdiyi hormon milyonlarla diabet xəstəsinin həyatını xilas edib. Şəkərli diabet indi də sağalmayan xəstəliklər sırasına daxil olsa da, insulinin hesabına onu nəzarətdə saxlamaq mümkündür. 1923-cü ildə biokimya və təbabət sahəsində Bantinq və Makleoda Nobel mükafatı verilib.

Şəkərli diabet orqanizmdə bəzi mübadilə proseslərinin pozulması nəticəsində qanda şəkərin normadan artıq və ya bəzən də az olmasıdır. Tam müalicə olunmadığına görə həmin xəstələr daim ciddi nəzarət altında olmalı, müəyyən qayda və qadağalara riayət etməlidirlər. Elə buna görə də bəzən şəkərli diabet xəstəlik yox, həyat tərzi hesab edilir.

Hazırda şəkərli diabet ateroskleroz və xərçənglə yanaşı, dünyada ən çox əlilliyə və ölümə səbəb olan ilk üç xəstəlikdən biri hesab edilir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, bu problem dünya əhalisinin ölüm faizini 2-3 dəfə artırır. Xəstəlik eyni zamanda yayılma miqyasına görə də aktuallığını qoruyur. Əgər 1980-ci ildə şəkərli diabetdən 108 milyon nəfər əziyyət çəkirdisə, hazırda həmin rəqəm 537 milyona çatıb. Yəni hər il şəkərli diabetdən əziyyət çəkənlərin siyahısı artmaqda davam edir. Xəstəliyin risk qrupuna 24-60 yaş arasında olanlar daxil edilir.

Əvvəllər qanda qlükozanın miqdarı 1 litrdə 6,6 millimoldan çox olanlar diabet xəstəsi hesab edilirdi. İndi isə qanda qlükozanın miqdarının 3,3-5,5 millimola qədər olması norma hesab edilir. Bu, şəkərli diabet xəstələrinin sayının artması deməkdir. Hər yerdə olduğu kimi, Azərbaycanda da diabet xəstəliyinin əsas səbəbi azhərəkətli həyat tərzi, qeyri-düzgün qidalanma və artıq çəkidir. Ötən ilin statistikasına görə, ölkəmizdə şəkərli diabet xəstələrinin sayı 320,9 mindən çoxdur.

# Beynəlxalq Loqoped Günü qeyd olundu

Noyabrın 14-ü Beynəlxalq Loqoped Günü qeyd olunur. AZƏRTAC xəbər verir ki, xəstələrin həyatında loqopedlərin mühüm rolu nəzərə alınaraq bu beynəlxalq peşə bayramı 2004-cü ildə təsis edilib.



Loqopediya pedaqoji elmin nitq pozuntularını öyrənən sahəsidir. Pedaqoji elmlərin bir sahəsi olan loqopediya nitq pozulmasının səbəblərini, simptomatikası və mexanizmini öyrənir və xüsusi təlim, tərbiyə vasitəsilə onun aradan qaldırılması üsulları ilə məşğul olur. Loqopedlər əsasən məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlarla məşğul olurlar. Lakin onlar həm də yaşlıların nitqində kommunikativliyin, ünsiyyətcilliyin təmin olunmasına çalışırlar.

Nitq pozuntularının korreksiyasına ilk dəfə XVII əsrə aid surdopedaqogika üzrə işlərdə rast gəlmək mümkündür. XIX əsrin ikinci yarısından etibarən eşitmə qabiliyyətinin normal olmasına baxmayaraq meydana çıxan nitq çatışmazlıqlarının öyrənilməsi tibbi istiqamət almağa başlayıb. Beləliklə, nitq pozuntularının düzəldilməsi müalicəvi prosedur olaraq qəbul edilir və həkimlər, tibb bacıları tərəfindən tətbiq olunur. XIX əsrin axırlarından başlayaraq nitqin anlaşılması və ötürülməsinin müxtəlif üsulları araşdırılmağa başlanılıb.

Loqopedin işi fərdi xarakter daşıyır və mütəxəssisdən təkcə nəzəri bilik və praktik bacarıqlar deyil, həm də inkişaf psixologiyasının xüsusi xarakteri, bilik və digər keyfiyyətlər tələb edilir. Hər uşaqla qrupda işləmək alınmır, uşaqların bir çoxu, hətta böyüklər də öz problemlərindən utanır və onu başqalarının yanında açıb-ağartmaq istəmirlər. Belə bir vəziyyətdə loqopeddən səbir və həssaslıq tələb olunur, bunsuz bütün işlərin uğuru sual altında qalır. Loqopedin işi pedaqogika, psixologiya, fiziologiya, nevrologiya, defektologiya və dilçilik sahəsində biliklərə əsaslanır.

Loqopedin fəaliyyət dairəsi fərdi səslərin tələffüzünün korreksiyası ilə məhdudlaşmır, nitq aparatının anadangəlmə fiziki anormallıqlarından əziyyət çəkən, həmçinin nitq və orfoqrafiya ilə bağlı problemləri olanlara kömək etmək üçün daha geniş vəzifələri əhatə edir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



# "Yelo Bank" ASC-nin səhmdarlarının nəzərinə!

18 dekabr 2023-cü il tarixdə saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi, 81k ünvanında yerləşən "Yelo Bank" ASC-nin baş ofisində səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

Cari və təşkilati məsələlərə baxılması.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədlər təqdim edilməlidir.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

***"Yelo Bank" ASC-nin Müşahidə Şurası***


# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Noyabrın 14-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların müraciətlərini dinləyib, suallarını cavablandırıb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin apardığı mükəmməl siyasi xəttin ölkəmizin hərtərəfli və davamlı inkişafını, bütün sosial layihələrin ardıcıl icrasını təmin etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin problemlərinin həllini sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün zəruri tədbirlər görülür. Keçmiş məcburi köçkünlərin mənzil, təhsil, sağlamlıq problemlərinin həllinə Birinci vitse-prezident Mehriban Əliyeva da xüsusi diqqət və qayğı göstərir, bu sahədə mühüm işlər görür.

Vətəndaşların müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Komitə sədrinin qəbulunda əksəriyyəti məcburi köçkün olan vətəndaşların müraciətləri dinlənilib və müvafiq qaydada qeydə alınıb. Onlara bildirilib ki, qaldırılan məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

# Külli miqdarda narkotik vasitələr və psixotrop maddə aşkar edilib

Biləsuvar Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında İran İslam Respublikasından tranzit keçməklə Naxçıvan-Bakı marşrutu üzrə hərəkət edən avtobusdakı sərnişinin üzərinə baxış keçirilib.

Yoxlama zamanı həmin şəxsin ayaqqabılarının içərisindən gömrük nəzarətindən gizlədilmiş külli miqdarda - 205,776 qram metamfetamin psixotrop maddəsi, 189,610 qram heroin və 4,93 qram metadon narkotik vasitələri aşkar edilib.

Faktla bağlı komitənin Əməliyyat-İstintaq Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2 (Qaçaqmalçılıq) və 234.4.1, 234.4.3 (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını əldəetmə, saxlama) maddələri ilə cinayət işi başlanıb və bir nəfər cinayət məsuliyyətinə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işinin istintaqı davam etdirilir, cinayətə aidiyyəti olan digər şəxslərin müəyyən edilib məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

***DGK-nın Mətbuat və İctimaiyyətlə***
***Əlaqələr İdarəsi***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**



***Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Abşeron Rayon Prokurorluğunun əməkdaşı Mərcan Atakişi qızı Qəhrəmanovanın adına verilmiş 28.08.2023-cü il tarixli 113 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***



**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlıya anası

**PƏRİXANIM ASTAN QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycanın Türkiyədə ticarət nümayəndəsi Tamerlan Tağıyevə atası

**HƏSƏN TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5328**
**Sifariş 2959**

**Qiyməti 40 qəpik**